**ZAKİR BAYRAMLI**

# İKİNCİ GÖRÜŞ

(Şeirlər, qəzəllər və poemalar)

**“Müəllim” nəşriyyatı**
**Bakı - 2015**

*Redaktor:* **Bayram Novruz**

Zakir Bayramlı. **İKİNCİ GÖRÜŞ.** Bakı: "Müəllim" nəşriyyatı, 2015. 196 səh.

*Bu kitab 50 ildən artıq bədii yaradıcılıqla məşqul olan Zakir Bayramlının sevimli oxucuları ilə ikinci görüşüdür.*

*Kitabda Z.Bayramlı nın Vətənə, el-obaya, sevgi-məhəbbətə və digər müxtəlf mövzulara həsr etdiyi çoxlu sayda şeirləri, qəzəlləri və "Ailə qalası", "Övlad", "Tusi", "Həyat yolu", "Ana Kürün sorağında", "Xəzər sahilində" adlı poemaları toplanmışdır. Ümidvarıq ki,müxtəlif həyatı mövzuları öz bədii yaradıcılığında geniş əks etdirən şairin bu kitabı onun yolunu gözləyən istəkli oxucuları tərəfindən böyük sevinc və maraqla qarşılanacaqdır.*

$B\frac{1052812-2015}{9952-435}$

**© Zakir Bayramlı, 2015**

"Müəllim" nəşriyyatında çap olunmuşdur.

Çapa imzalanmışdır 28.12.2015. Sifariş 105.
Kağız formatı 60×84$^{1/16}$. Şərti 12,3 ç.v. Sayı 100.

## ÖN SÖZ

## VƏTƏNƏ, EL-OBAYA MƏHƏBBƏTLƏ BAĞLANAN ŞAİR

Sayca ikinci olan bu şeirlər kitabını Zakir Bayramlı "İkinci görüş" adlandırıb. Müəllif buraya son illərdə müxtəlif janrlarda qələmə aldığı əsərlərlə yanaşı, 20 qəzəl və 6 lirik poemasını da daxil etmişdir.

Kitab şairin hədsiz Vətən sevgisinə, doğma yurdun gözəlliklərinə həsr olunmuş poetik duyğuları ilə başlayır. Lakin Vətən sevgisini, torpaq istəyini onun bir-iki şeiri ilə qiymətləndirmək olmaz. Diqqət versək görərik ki, sanki onun bütün yaradıcılığıında bu istək qram-qram, damla-damla onun qəlbindən, canından və qanından süzülüb gəlir. Şeirləri, qəzəlləri və poyemaları oxuduqca hər kəs Z.Bayramlının Vətənə, xalqa qırılmaz tellərlə çox sıx bağlı olan bir şair olduğuna bir daha inanır:

Sən qızıldan qiymətli şirin can,
Sən damarda gecə-gündüz axan qan,
Ürəyimdə duyğum, hissim, həyacan,
Sən Tanrıdan güc almısan, ey Vətən,
Kim deyir ki, qocalmısan, ey Vətən!

Zakir deyir, çiçək açsın Vətənim,
Odur mənim yurdum, yuvam, məskənim.
Öləndən sonra da bəyaz kəfənim...
Sən Tanrıdan güc almısan, ey Vətən,
Kim deyir ki, qocalmısan, ey Vətən!

“Azərbayacan” şerində müəllif doğma respubilkamızın son 10 ildə qazandığı uğurlara ürəkdən sevinir və sevincini heç cür oxuculardan gizlətə bilmir:

Sənin bənzərin var çiçəkli yaza,
Səmada sayrışan parlaq ulduza,
Ruzi-bərəkətli qızıl payıza,
Canım sənə qurbandır, Azərbaycan,
Könlümü etmə peşman, Azərbaycan!

Şair Zakir yaşamaz heç Vətənsiz,
Bülbül susar, şərqi deməz çəmənsiz
Günüm rahat keçməz, ey anam, sənsiz.
İstəsən keçərəm mən şirin candan,
Ömrümə oldun sultan, Azərbaycan,
Etdin eşqimdə tuğyan, Azərbaycan

Z.Bayramlı yaradıcılığında “Çıraqqala” mövzusu olduqca mühüm əhəmiyyət kəsb edir. İldə bir neçə dəfə həmin qəhrəman yurdu ziyarət edən şair bu mövzuda bir neçə şeir yazıb. Onu da qeyd etmək lazımdır ki, o, Vətənin bu dilbər guşəsi haqqında nə qədər yazırsa yazsın onun sinəsi yenə də doludur. O, Vətənin bu günkü və sabahkı uğurlarından ilham aldıqca onun şeirlərinin hər sətrində Vətən və torpaq sevgisindən nur aldığı çox aydın görünür:

Qartal kimi yuva qurdun dağ başında,
Bir tarix var kərpicində, sərt daşında.
Qalib çıxdın sən ədalət savaşında,
Qalaların qalasısan, Çıraqqala.
Sən əbədi qalasısan, Çıraqqala.

Bürclərində  çoxlu tonqal alışdırdın,
Öz hayına düşmən başın qarışdırdın.
Bayramlarda küsənləri barışdırdın.
Qalaların qalasısan, Çıraqqala.
Sən əbədi qalasısan, Çıraqqala.

Burada çox igidlərin izi qalııb,
Torpağında düşmənlərin gözü qalıb,
Ölməz Dədə Qorqudların sözü qalıb.
Qalaların qalasısan, Çıraqqala.
Sən əbədi qalasısan, Çıraqqala.

Sən Vətənin bir igidlik simvolusan,
Sən xalqımın güvən yeri-sağ qolusan.
Həqiqətə doğru gedən Haqq yolusan,
Qalaların qalasısan, Çıraqqala.
Sən əbədi qalasısan, Çıraqqala.

Müəllifin insan duyğularının ən ülvi və əbədi ünvanı olan saf məhəbbət mövzusunda qələmi bir an belə dayanmaq bilmir. Dünyəvi estetik duyğularla zəngin olan bu mövzuda onun çoxlu sayda qələmə aldığı şeirləri isə həqiqətən sevənlərin rəğbətini qazanmağa layiqdir:

Həyat qaynar gözümüzdə,
Hikmət olar sözümüzdə,
Mizrab oyanar sazımızda,
Gözəlliyə qovuşanda.

Sən bir gülə, çiçəyə bax,
Bülübülləri edib qonaq,
Nəğmə deyər hər dil dodaq
Gözəliyyə qovuanda.

Məhəbbətin yaşı olmaz,
Hər üzüyün qaşı olmaz.
Şair Zakir naşı olmaz
Gözəlliyə qovuşanda.

Yuxarıda qeyd etdiyimiz kimi, şairin bu kitabına son dövrlərdə yazdığı qəzəllərini də daxil edilmişdir. Bu qəzəllərdə Vətən sevgisi yenə insana sevgi ilə vəhdətdə götürülür:

Dünyanı gəzib, ən uca yerlərdə dolaşsan,
Çox tez əriyər dağlarının qarı Vətənsiz.

Zakir, nə qədər olsa da hər yanda gözəllər,
Gəl seçməginən sən özünə yarı Vətənsiz.

Kitaba Z.Bayramlının 6 lirik poeması da daxil edilmişdir. Bu poemalar hamı bir-birindən gözəl və ülvi duyğularla zəngindir. Lakin xəmiri saf məhəbbət hisslərindən yoğurulmuş "Xəzər sahilində" poyemasını həyacansız oxumaq mümkün deyil. Bu əsərdə şair Xəzərə olan dərin və ülvi məhəbbətini özünün ürək çırpıntıları ilə qələmə alıb. O, bütün əsər boyu Xəzərə olan məhəbbətində sadiq olduğunu oxuculara açıb gösrərir. Biz əsərin sonunda belə onun döyünən qəlbində Azərbaycan adlı məkanın ən füsunkar və xeyir-bərəkətili bir guşəsi olan Xəzərə olan sevgisinin heç vaxt tükənməyəcəyinin şahidi oluruq:

Yekun vursam da mən, alın nəzərə,
Hələ çox sözüm var mavi Xəzərə.
Sənin gözəlliyin heç zaman enməz
İnan məhəbbətin qəlbdən silinməz.
Bütün dənizlərin anası Xəzər,
Nadir gözəllərin aynası Xəzər ,

Vətənim müqəddəs, zəngin guşəsi,
Onsuz inkişafın yox nəticəsi.
Vətənə məhəbbət şuarım mənim,
Xəzərdir sevgili nigarım mənim.
Suyu təmiz, eşqi təmiz Xəzərim,
A dostlar, burada bitir əsərim.

Ümid edirik ki, Z.Bayramlının geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu maraqlı kitabı çoxsaylı oxucularını ürəkdən sevindirəcək və uzun zaman onların kitab rəflərini bəzəyəcəkdir.

***Aydın Tağıyev, Yazıçı-jurnalist, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü.***

# ÇİÇƏK AÇSIN VƏTƏNİM...

## EY VƏTƏN

Sən qızıldan qiymətli şirin can,
Sən damarda gecə-gündüz axan qan,
Ürəyimdə duyğum, hissim, həyacan,
Sən Tanrıdan güc almısan, ey Vətən,
Kim deyir ki, qocalmısan, ey Vətən.

Sən mənim sirdaşım, yaxın həmdəmim.
Bağçamda gül açan tər yasəmənim.
Sənsiz solur tamam çölüm, çəmənim,
Sən Tanrıdan güc almısan, ey Vətən,
Kim deyir ki, qocalmısan, ey Vətən.

Ulu bir tarixdir hər qəbir daşın,
Çox müsibət görüb bəlalı başın.
Canlı şahidisən neçə savaşın,
Sən Tanrıdan güc almısan, ey Vətən,
Kim deyir ki, qocalmısan, ey Vətən.

Zakir deyər, çiçək açsın Vətənim,
Odur mənim yurdum, yuvam, məskənim.
Öləndən sonra da bəyaz kəfənim,
Sən Tanrıdan güc almısan, ey Vətən,
Kim deyir ki, qocalmısan, ey Vətən.

## AZƏRBAYCAN

Geniş düzənliklər, bu qarlı dağlar,
Məhsullu tarlalar, meyvəli bağlar,
Yaşanır ömründə ən gözəl çağlar,
Çaşdıra bilmədi səni qar, tufan,
Gözəl cənnət məkan, ey Azərbaycan!

Xəzər dənizində uca buruqlar,
Vətənə  olubdur çətin gündə yar.
Xalqımız yaşayır indi bəxtiyar
Yetişib hər cür imkan, Azərbaycan,
Sənindir gözəl dövran, Azərbaycan!

Sizinlə fəxr edir Qzax, Lənkəran,
Çox yaraşır sənə Mil düzü, Muğan,
Qarabağ, Naxçıvan və qədim Şabran.
Sənin qələbəni eşidən zaman
Çıxar ürəkdən  tikan, Azərbaycan!

Sənlə maraqlanan çoxlu turistlər
Ölkəmizə tez-tez edirlər səfər.
Gördüyü yerlərə verirlər dəyər
Açılıb geniş meydan, Azərbaycan,
Gözləyir səni zaman, Azərbaycan.

Sənin bənzərin var çiçəkli yaza,
Səmada sayrışan parlaq ulduza,
Ruzi-bərəkətli qızıl  payıza,
Canım sənə qurbandır, Azərbaycan,
Könlümü  etmə peşman, Azərbaycan!

Şair Zakir yaşamaz heç Vətənsiz,
Bülbül susar, şərqi deməz çəmənsiz
Günüm rahat  keçməz,  ey anam, sənsiz.
İstəsən keçərəm  mən  şirin  candan,
Ömrümə oldun  sultan, Azərbaycan,
Etdin eşqimdə tuğyan, Azərbaycan.

## AZƏRBAYCANIM

Neçə arzu dinir dildə, könüldə,
Yaşadır özünü işdə, əməldə.
Bakıda, Gəncədə, Muğanda, Mildə
Gül açır hər yanın, Azərbaycanım,
Çəkilib dumanın, Azərbaycanım.

Ötdü qara yellər, dəyişdi dövran,
Hər kəndin, şəhərin oldu çıraqban,
Bayrağın səmada yellənən zaman
Ucalır ad-sanın, Azərbaycanım.
Gül açır hər yanın, Azərbaycanım!

Dünyaya səs salıb neftin və qazın,
Ötüb qarlı qışın, başlanıb yazın.
Aşıqlar zil səsdə kökləyib sazın,
Mahnılar sözüsən, Azərbaycanım!
Dünyanın gözüsən, Azərbaycanım!

Səadət günəşi yurdumda saçır,
Təbiət qışda da gül-çiçək açır.
Düşmən qüdrətini görəndə qaçır,
Vardır hərbi gücün, Azərbaycanım,
Böyük  zəfər üçün, Azərbaycanım!

Minlərlə turistin gəlsə də qonaq,
Sevinclə qarşılar hər yerdə  torpaq.
Zakir də  şerində verəcək soraq
El doymaz söhbətdən, Azərbaycanım!
Bu şandan, şöhrətdən, Azərbaycanım!

# BAKIM

Sən gözəllər gözəlisən,
İlk eşqimin əzəlisən.
Şeirimsən, qəzəlimsən,
Mənim bər-bəzəkli Bakım,
Tər güllü, çiçəkli Bakım.

Gözəl, yeni binaların,
Asfalt örtüklü yolların.
Abad, füsunkar bulvarın,
Sevilən, istəkli Bakım,
Tər güllü, çiçəkli Bakım.

Ulduzların gəlməz saya,
Ucalırsan günə, aya.
Səs salmısan bu dünyaya,
Xalqa çox gərəkli Bakım,
Tər güllü, çiçəkli Bakım.

Zakir, demə kədərim var,
Nurlu gecəm, səhərim var.
Qədim, ulu şəhərim var-
Mərd, igid ürəkli Bakım,
Tər güllü, çiçəkli Bakım.

## SƏRVƏTİMİZDİR

Deyirlər neft üstə dayanıb dünya,
Onunla yol açıb günəşə, aya.
Odur dar günümdə çatan haraya,
Neft bizim tükənməz sərvətimizdir,
Sarsılmaz gücümüz, qüvvətimizdir.

Xəzər məskənidir xam neftin, qazın,
Bakısız çin olmaz heç zaman arzun,
Bakı-Ceyhan olub kəsəri sözün,
Neft bizim tükənməz sərvətimizdir,
Sarsılmaz gücümüz, qüvvətimizdir.

Ölkəmi neftiylə tanıyır hər yan,
Neftçilər bu gün də igid, qəhrəman.
Yaşayır xalqımız xoşbəxt, firavan,
Neft bizim tükənməz sərvətimizdir,
Sarsılmaz gücümüz, qüvvətimizdir.

Heft üstə davalar gedir cahanda,
Od-alov püskürür baxsan hər yanda.
Sükür sakitlikdir Azəbaycanda,
Neft bizim tükənməz sərvətimizdir,
Sarsılmaz gücümüz, qüvvətimizdir.

Zakir deyir: Neftdən gələn gəlirlər,
Ölkə büdcəsinə çox fayda verər.
Sevinər insanlar, xoş günlər görər.
Neft bizim tükənməz sərvətimizdir,
Sarsılmaz gücümüz, qüvvətimizdir.

## YENƏ O GÜNLƏRİN SORAĞINDAYAM

Mənim şux gəncliyim düşübdü taxtdan,
Haqlayıb qocalıq məni nə vaxtdan.
Bir sual verirəm özümə çoxdan,
Bəlkə mən ömrümün sübh çağındayam,
Yenə o günlərin sorağındayam.

Məni məftun edib Şuşa dağları,
Qubanın çox məşhur alma bağları.
Xəstəlik sinəmə çəkib dağları,
Mən hələ yaşamaq marağındayam,
Yenə o günlərin sorağındayam.

Dünyaya gör necə səs salıb Nabran,
Gələn turistləri qoyubdur heyran.
Cənnətə bənzəyir bu ulu Şabran,
Heydər Zirvəsində-Şah dağındayam,
Yenə o günlərin sorağındayam.

Gəzdim bu dünyanı mən diyar-diyar,
Məni ovsunladı ellər, mahallar,
Tez-tez o yerlərə gedir xəyallar.
Xızının "Cənnət"i-gül bağındayam,
Yenə o günlərin sorağındayam.

Min dərdə dərmandır qoca Naftalan,
Savab iş görübdür burda yurd salan.
Bir də xəstələnməz burada olan
Sanıram müalicə otağındayam,
Yenə o günlərin sorağındayam.

Loğmanlar məskəni gözəl Mərdəkan,
Mənə doğma olub bu yer hər zaman.
Yenə də gedərdim, olsaydı imkan,
Çünki sağlamlığın marağındayam,
Yenə o günlərin sorağındayam.

Cənnəti-məkandır bizim Nohurlar,
Bu yerdə həmişə həyat eşqi var.
Burda qonaq olan çox razı qalar,
Deyər Azərbaycan torpağındayam,
Yenə o günlərin sorağındayam.

Zakir, qoca deyib üzmə özünü,
Çoxu yalan sayar görsə üzünü,
Bu tezkən həyatdan çəkmə gözünü,
Demə, Əzrayılın caynağındayam,
Yenə o günlərin sorağındayam.

## ŞABRANIM

*(Qədim Şabran şəhərinə həsr edilir)*

Beşinci əsrdən sayılır yaşın,
Bu Şirvan, Şamaxı, Şəki qardaşın.
Şəmkirlə Şatarsa olub sirdaşın,
Ey vətən mülkünün gözü Şabranım,
Qəhrəman ərlərin sözü Şabranım.

Qərb-Şərq yolu üstə bir qala-məkan,
Tapdın ticarətdə fürsət və imkan.
Yüksək inkişafla oldun çıraqban,
Ey vətən mülkünün gözü Şabranım,
Qəhrəman, ərlərin sözü Şabranım

Olubdur qoynunda yetmiş məhəllə,
Şöhrətin düşübdür dillərdən-dilə.
Düşmən çox əl atıb fitnəyə-felə,
Ey vətən mülkünün gözü Şabranım,
Qəhrəman ərlərin sözü Şabranım

Xain düçmən tapdı, axır ki, fürsət,
Başın  çəkdi neçə-neçə müsübət.
Topladın özündə indi cəsarət,
Ey vətən mülkünün gözü Şabranım,
Qəhrəman ərlərin sözü Şabranım

Yenə parıldayır xöşbəxt ulduzun
Çalır asta-asta sədəfli sazın,
Bəxtiyardır igid oğulun, qızın,
Ey vətən mülkünün gözü Şabranım
Qəhrəman ərlərin sözü Şabranım

## ŞABRAN

*(Şabranın bu gününə həsr edilir)*

O qədər qədimsən bilinmir yaşın,
Şahidi olmusan çoxlu savaşın.
Bir tarixdir qədim yazılı daşın,
Vətənin bükülməz qolusan, Şabran.
Süfrəsi bərəkət dolusan, Şabran!

Burdan keçib bir vaxt o İpək yolu,
Neçə nemət ilə karvanlar dolu.
Çox uzaq ellərdən qonağın olub,
Dostluq və qardaşlıq yolusan, Şabran,
Süfrəsi bərəkət dolusan, Şabran.

Bu yeri gəzməklə heç doymaq olmaz,
Bu torpaq əzizdir, bil unudulmaz.
Qonaq turistləri narazı qalmaz,
Qədimdən qədimsən, ulusan, Şabran,
Süfrəsi bərəkət dolusan, Şabran.

Sən Şərq ilə Qərbin qapısı oldun,
Artdıqca şöhrətin göyə ucaldın.
Xain düşmənləri lərzəyə saldın,
Elin igid qızı, oğlusan, Şabran,
Süfrəsi bərəkət dolusan, Şabran.

Qayıtdı özünə tarixi adın,
Gözünə ox batdı düşmənin, yadın.
Fəxr edir səninlə Zakir övladın,
Onun həm sağı,  həm solusan, Şabran,
Süfrəsi bərəkət dolusan, Şabran!

## ÇIRAQQALA

Uca dağlar zirvəsində tutdun qərar,
Sənə tez-tez qonaq olur sıx buludlar.
Sənin kimi şan-şöhrətli qalamı var,
Qalaların qalasısan, Çıraqqala.
Sən əbədi qalasısan, Çıraqqala.

Qartal kimi yuva qurdun dağ başında,
Bir tarix var kərpicində, sərt daşında.
Qalib çıxdın sən ədalət savaşında,
Qalaların qalasısan, Çıraqqala.
Sən əbədi qalasısan, Çıraqqala.

Bürclərində  çoxlu tonqal alışdırdın,
Öz hayına düşmən başın qarışdırdın.
Bayramlarda küsənləri barışdırdın.
Qalaların qalasısan, Çıraqqala.
Sən əbədi qalasısan, Çıraqqala.

Burada çox igidlərin izi qalıib,
Torpağında düşməbnlərin gözü qalıb,
Ölməz Dədə Qorqudların sözü qalıb.
Qalaların qalasısan, Çıraqqala.
Sən əbədi qalasısan, Çıraqqala.

Sən Vətənin bir igidlik simvolusan,
Sən xalqımın güvən yeri-sağ qolusan.
Həqiqətə doğru gedən  Haqq yolusan,
Qalaların qalasısan, Çıraqqala.
Sən əbədi qalasısan, Çıraqqala.

Sənin ilə fəxr eləyir qədim Şabran,
Qoy var olsun, min yaşasın Azərbaycan.
Yenilməyən vüqarına Zakir qurban,
Qalaların qalasısan, Çıraqqala.
Sən əbədi qalasısan, Çıraqqala.

## AĞZIBİRÇALA

İki yüz əlli göl Azərbaycanda
Vardır, qərar tutub onlar hər yanda.

Axarlı göllərin inan misli yox,
Onların iqlimi çox sevilir, çox.

Təbiət yaradan bu gözəlliyin
Tayı-bərabərdi varmı, bir deyin?!

Göllərdən alınan çoxlu məhsullar
Ərzaq tək özünə geniş yer alar.

Xəzər sahilində Ağzıbirçala
Möhkəmçə qorunur, sankı bir qala.

Qış vaxtı  olsa da güclü boran-qar,
Burda məskən salır köçəri quşlar.

Balıqla,quşlarla zəngin bu gölü,
Sayıblar Vətənin nadir bir gülü.

Şabran bölgəsində yerləşir bu göl,
Çaylarla Xəzərə birləşir bu göl.

Göllərin içində mirvari, inci,
Olubdur həmişə elin sevinci.

Bu şirin sulu göl Azərbaycanda
Yeganə sayılıb bütün zamanda.

Göldə olan şirin su ehtiyatı
Daim canlandırıb burda həyatı.

Bu göl vaxtıykən bir liman olmuş,
Ov mövsümü quş, balıq ovlanmış.

Plana həmişə əməl edilmiş,
Ölkəyə bolluca gəlir gətirmiş.

İndi bağlansa da o köhnə liman,
Qanunsuz bir ova  verilmir aman.

Gölə qonaq gələn minlərlə quşlar
Burada dincələr, burada qışlar.

Quşların məskəni olan bu yerlər
Ovçuların məkanıdır deyirlər.

Hər ov mövsümündə yüzlərlə insan
Gəlib ləzzət alıb etdiyi ovdan.

Qanunu qaydada ova gələnlər,
Silahla rəftarı yaxşı bilənlər

Ürəkcə ov edib burda həmişə,
Ovçuluğu seçib özünə peşə.

Zəngin ehtiyyatlar vardır bu göldə,
Onunçun məşhurdur ağızda ,dildə.

Ölkənin çox varlı bu xəzinəsi
Quşların səsilə alır nəfəsi.

Bu şeri bitirib düşürəm yola,
Getmir xəyalımdan Ağzıbirşala.

## PİRƏBƏDİL

Min tarix yaşadır sənin hər daşın,
O qədər ulusan, bilinmir yaşın.
Şahidi olmusan neçə savaşın,
Müsibətlər görüb, ağrıyıb başın,
Alqış deyir sənə Vətən, Pirəbədil,
Şabranımda bir dənəsən, Pirəbədil.

Bu qədim torpaqda yüz illərdi sən,
Bağ-bağça salmısan, gül bitirmisən,
Neçə-neçə oğul, qız yetirmisən,
Azadlıq uğrunda ər itirmisən,
Alqış deyir sənə Vətən, Pirəbədil,
Şabranımda bir dənəsən, Pirəbədil.

Zərif xalçaların dünyanı gəzər,
Əlvan naxışları onları bəzər.
Hər çeşni dil açan bir canlı əsər,
Hər rəng musiqitək qəlblərə süzər,
Alqış deyir sənə Vətən, Pirəbədil,
Şabranımda bir dənəsən, Pirəbədil.

Sanki bir cənnətdir Əhmədbulağı,
Güllük, çəmənlikdir onun torpağı.
Qızarıb lələnin gözəl yanağı
Sevinclə qarşılar gələn qonağı.
Alqış deyir sənə Vətən, Pirəbədil,
Şabranımda bir dənəsən, Pirəbədil.

Gözəllər yığılar bulaq başına,
Sürməni çəkərlər gözü, qaşına.
Çıxsa bulaq üstə bir qız qarşına,

Eşqə düşər könlün, baxmaz yaşına
Alqış deyir sənə Vətən, Pirəbədil,
Şabranımda bir dənəsən, Pirəbədil.

Hər gülün çiçəyin burda yeri var,
Görənlər ətrindən tez bihuş olar.
Könlünə bir dinclik, rahatlıq dolar.
Yadında bir şirin xatirə qalar,
Alqış deyir sənə Vətən, Pirəbədil,
Şabranımda bir dənəsən, Pirəbədil.

Meşədir hər yanı: düzləri, dağı,
Gül açır baharda bağçası, bağı,
Hər il bəhər verir varlı torpağı.
Uzaq ellərdən də gəlir sorağı,
Alqış deyir sənə Vətən, Pirəbədil,
Şabranımda bir dənəsən, Pirəbədil.

# BU YERLƏRƏ GƏL

Gözəl təbiətli, şən Pirəbədil,
Hüsnünü görəndə ürək açır dil.
Bu kəndi unutmaq heç mümkün deyil,
Yubanma, əziz dost, bu yerlərə gəl,
Həm tamaşa elə, həm gəz, həm dincəl.

Qədimdir tarixi Sumaqovanın,
Buralar gözüdür elin, obanın.
Şirin söhbəti var nənə-babanın,
Yubanma, əziz dost, bu yerlərə gəl.
Həm tamaşa elə, həm gəz, həm dincəl.

Yaşıl donlu olur yazda Zöhramı,
Hüsnü heyran edir görən adamı.
"Əhsən" deyir ona qonaqlar hamı,
Yubanma, əziz dost, bu yerlərə gəl.
Həm tamaşa elə, həm gəz, həm dincəl.

Bir barlı, bəhərli bağçadır Qorğan,
Hər yanı yaşıllıq, güllər al-əlvan.
Çıxsan dağlarına qalarsan heyran,
Yubanma, əziz dost, bu yerlərə gəl.
Həm tamaşa elə, həm gəz, həm dincəl.

Qədim yurd yeridir iki Bilici,
Biri dağ, biri düz-hər biri inci.
Görəndə adamın artır sevinci,
Yubanma, əziz dost, bu yerlərə gəl.
Həm tamaşa elə, həm gəz, həm dincəl.

Günəşlə oyanır qədim Qələgah,
Kəndin sakinləri sağlam və gümrah.
Buraya gəlməsən olacaq günah,
Yubanma, əziz dost, bu yerlərə gəl.
Həm tamaşa elə, həm gəz, həm dincəl.

Sizə söhbət açım Dərəmumludan,
Heç vaxt xəstələnməz havasın udan.
Gözəl mənzərəsi çıxarmı yaddan?!
Yubanma, əziz dost, bu yerlərə gəl.
Həm tamaşa elə, həm gəz, həm dincəl.

Təkdir gözəllikdə Bilici Qorğan,
Bu yerlər gələcək xoşuna inan.
Təmiz hava üçün darıxan zaman
Yubanma, əziz dost, bu yerlərə gəl.
Həm tamaşa elə, həm gəz, həm dincəl.

Çox cavan bir kənddir bizim Taxtalar,
Üşütməz insanı qışda şaxtalar.
Bura hər vaxt gələn razı qayıdar,
Yubanma, əziz dost, bu yerlərə gəl.
Həm tamaşa elə, həm gəz, həm dincəl.

Zakir, burda bitir sən gəl sözümü,
Sadə ol, yuxarı tutma özünü.
Tanrı yumanadək sənin gözünü,
Yubanma özün də, bu yerlərə gəl.
Həm tamaşa elə, həm gəz, həm dincəl.

## GƏNDOVUN

Qədim bir tarixdir ulu torpağı,
Görüb razı qalır hər bir qonağı.
Vardır saf havası uca Şahdağın,
Artır bol məhsulu, barı Gəndovun.

Neçə-neçə arzu qovuşdu burda,
Yeni nəfəs gəldi sanki bu yurda.
Belə gözəl məkan tapılar harda?
Çoxdan əriyibdir qarı Gəndovun.

Tarixini yazmaq bir borcdur mənə,
Vurğunam ürəkdən çölə, çəmənə.
Zaman çay kimidir, axmaz tərsinə,
Çiçək açıb arzuları Gəndovun.

Bir ailə kimidir burda insanlar,
Hər sakin özünü çox xoşbəxt sanar.
Günlər şən keçdikcə həyat da qaynar,
Çıraqbandır kənd yolları Gənovun.

Küçələr, həyətlər olub gülüstan,
Sözüm sona çatmaz, yazsam da dastan.
Onunla fəxr edib həmişə Şabran,
Solmasın gülləri, barı Gəndovun.

Üş yol ayrıcında o, bir çıraqdır,
Bu qoca Şabrana arxa-dayaqdır.
Dünəndən, bu gündən canlı soraqdır,
Söhbətlidir qocaları Gəndovun.

Şair necə yazar şeri Vətənsiz,
Bülbül oxuyarmı çölsüz-çəmənsiz?!
Şabran nəfəs almaz, obasız, kəndsiz,
Reallaşmaz xəyalları Gəndovun.

Şairi yaşadar sevgi, məhəbbət,
Düz ilqar, etibar, bir də sədaqət.
İlham mənbəyidir ana təbiət,
Xəzinədir tarlaları Gəndovun.

Burda çox olmuşam toyda, busatda,
Könüllər dillənib hər xoş saatda.
Bir cənnət-məkandır o, kaihatda
Əbədidir novbaharı Gəndovun.

Zakirəm, çox sadə ömür yaşadım,
Müəllimim oldu mənim ustadım.
Bu kəndə həsr etdim qoşma, bayatı...
Qoy yaşasın sənətkarı Gəndovun.

## KƏNDİM

Bu yerin təməli qoyulan anda,
Məhəbbət çırağı yandı hər yanda,
Çox əməl gül açdı həmin məkanda,
Mayak tək yolumda dayanan kəndim,
Günəşlə bir yatıb oyanan kəndim!

Neçə-neçə insan qovuşdu burda,
Arzu qanad açıb bax uçdu burda,
Xöşbəxtlik möhrünü vurdu bu yurda.
Mayak tək yolumda dayanan kəndim,
Günəşlə bir yatıb oyanan kəndim.

Səni dəyişmərəm mən yüz şəhərə,
Çünki bənzərin var  nurlu səhərə.
Gəl üzündən öpüm, nolar bir kərə,
Mayak tək yolumda dayanan kəndim,
Günəşlə bir yatıb oyanan kəndim,

Mən səni özümə ana bilmişəm,
Sənin görüşünə yenə gəlmişəm.
Doyunca gəzmişəm, deyib-gülmüşəm,
Mayak tək yolumda dayanan kəndim,
Günəşlə bir yatıb oyanan kəndim.

Üç yolun üstündə tutmusan qərar,
Səni qorxutmayıb nə boran, nə qar.
Daha da çiçək aç, sevimli diyar,
Mayak tək yolumda dayanan kəndim,
Günəşlə bir yatıb oyanan kəndim,

Zakir, şükür elə sən yaradana,
Bu yer dayaq olub ulu Şabrana.
Şabran da fəxrdir Azərbaycana.
Mayak tək yolumda dayanan kəndim,
Günəşlə bir yatıb oyanan kəndim.

# SƏNİN MƏHƏBBƏTİN YAŞADIR MƏNİ

## GÖZƏLLİYƏ QOVUŞAQNDA

Sevincdən üzümüz gülər,
Ürəyimiz dilə gələr.
Ovqatımız  lap düzələr
Gözəlliyə qovuşanda.

Unudular dərd, qüssə, qəm,
Bir toy-busat olar aləm.
Gözəllərdən yazar qələm
Gözəlliyə qovuşanda.

Həyar qaynar gözümüzdə,
Hikmət olar sözümüzdə.
Mizrab oynar sazımızda
Gözəlliyə qovuşanda.

Sən bu gülə, çiçəyə bax,
Bülbülləri edib qonaq.
Nəğmə deyər hər dil-dodaq
Gözəlliyə qovuşanda.

Bax sonalar gölə gəldi,
Gölə gülə-gülə gəldi
Sevgililər dilə gəldi,
Gözəlliyə qovuşanda.

Məhəbbətin yaşı olmaz,
Hər üzüyün qaşı olmaz.
Şair Zakir naşı olmaz
Gözəlliyə qovuşanda.

## EŞQİN SƏDASI

Mən fələyə nə deyim,
Dərddən yanır ürəyim.
Çin olmadı diləyim,
Yoxsa eşqin sədası,
Olmaz ömrün mənası.

Qocalmışam, dözüm yox,
Kor olmuşam-gözüm yox.
Lal durmuşam-sözüm yox,
Yoxsa eşqin sədası,
Olmaz ömrün mənası.

Neylədin dağ vüqarı,
Tez unutdun ilqarı.
Sən verdin intizarı.
Yoxsa eşqin sədası,
Olmaz ömrün mənası.

“Sevmirəm” desən mənə,
Səni sevərəm yenə.
Könlümü güldürsənə,
Yoxsa eşqin sədası,
Olmaz ömrün mənası.

Zakiri Tanrı saxlar,
Dərdindən hər gün ağlar.
Ümidin sənə bağlar.
Yoxsa eşqin sədası,
Olmaz ömrün mənası.

## MƏNİM İLK MƏHƏBBƏTİM

Sən sinəmdə ürəksən,
Xoş arzusan, diləksən.
Günahsız bir mələksən,
Gəl, gəl, ay səadətim,
Mənim ilk məhəbbətim.

Dağların başı qardır,
Dörd yanın duman aldı.
Sevginin dili laldır,
Sənsən gücüm, taqətim,
Mənim ilk məhəbbətim.

Həyatıma nur saçan,
Könül qapımı açan,
Ömrümə işıq saçan,
Bər-bəzəyim, zinətim,
Mənim ilk məhəbbətim.

Qanda varsa məhəbbət,
Canda olacaq qüvvət.
Sənsiz olmazdım xoşbəxt,
Tükənməyən sərvətim,
Mənim ilk məhəbbətim.

Sevgimin şah əsəri,
Ən qiymətli gövhəri.
Ver mənə xoş xəbəri,
Vüsal olsun qismətim,
Mənim ilk məhəbbətim.

## BİR SEVGİ HEKAYƏSİ

*(Ömür-gün yoldaşımın 60 illik yubileyinə)*

Ruhum qanadlanıb göylərdə uçdu,
Ovqatım düzəlib könlümü açdı.
Qüssədən, kədərdən uzaqlaşıb mən,
Belə xöşbəxt anı vermədim əldən.
Xəstə könlüm abad olan bu anda,
Özümü sandım mən bir gülüstanda.
Naz ilə yanıma gələndə canan,
Gül açdı bir bahar fəsli tək hər yan.
Zülfünü üzünə atanda inan,
Gözümə göründü sanki bir ceyran.
Bihuş edib məni ətri güllərin,
Dedi, uzaq olsun dərdin, kədərin
İncə yerişlə bu ləbləri püstə
Oturdu yanımda göy otun üstə.
Bu dəmdə bağçada bülbül oxudu,
Elə bil həsədlə o bizə baxdı.
Cəh-cəhi məst etdi məni o saat,
Qulaqda səsləndi sanki toy-busat.
Aquşa alarkən qönçə dəhanı,
Tapdım həmin anda qəlbə dərmanı.
Bir cüt busə alıb bal dodaqlardan,
Ölsəm də doymaram, dedim mən yardan
İndi bildim əsl yaşamaq nədir,
Eşqsiz bu həyat puç-əfsanədir.
Dedim, tez çarə tap mən çəfakeşə,
Eşqini özümə etmişəm peşə.
Allah xatirinə qəlbimi qırma,
Yaralı könlümün közün qoparma.
Məhəbbət olmazsa, xöşbəxtlik olmaz,
Əsl istək və sevgi heç zaman solmaz.

Xoşbəxtəm bir  çarə tapsan dərdimə,
Gözəl dedi: - Aşiq, daha qəm yemə,
İstəsən söyləyim, sözün düzünü,
Yanında olacam ömrü uzunu.
Tutub əllərimdən şux nazlı dilbər
Bir nəfəsə dedi o sinədəftər:
-Yaxın gəl, utanma aslanım mənim,
Sənsiz xəzan olar çölüm, çəmənim.
Mən də istəyirdim, səni bir görəm,
Sevgimdən qəlbimdə bir çələng hörəm.
Səndən savayı bil sevən kəsim yox,
Səni özümdən də istəyirəm çox.
Əgər sevirsən mən zülfü qaranı,
Gərək bağlayasan sən də yaranı.
Əbədi mehmanın olaram sənin
Yanında həmişə qalaram sənin.
Ömrün sonunadək yarın olacam,
Sənə həyat boyu həyan qalacam.
Başına sevgidən çələng hörəcəm,
Sənin xoş gününü mən bəzəyəcəm.
Saf su tək həyatın olacağam mən,
Sənə sədaqətli qalacağam mən.
Gözüm görüb könlüm sevibdir səni,
Gəl, mənim ömrümün tər yasəməni.
Hicrana yox dedik elə o gündən,
Qorxub çəkinmədik inan heç nədən.
Uzun ömrü başa vurduq ikimiz,
Eşq, məhəbbət oldu daim yükümüz.
Qoşa durna kimi uçduq səmada,
Məhəbbət yaşatdı bizi dünyada.
Övladlar yetirdik vətən üçün biz,
Zəhmətlə çiçəklər açdı elimiz.
Onlar böyüdülər xalqıma layiq,

Vətən keşiyində dayandı sayıq.
Qocaltsa da bizi bu saf məhəbbət,
Dayaq oldu ona sədaqət, hörmət.
Mən elə o gündən tapdım yarımı,
Ömrümü bəzəyən növbaharımı.
Bu gün də yaşayır o sevgi mənlə,
Həminki gücündə, həmin ahənglə.
Qram azalmayıb onun üstündən
Neçə onilliklər keçib o gündən.
Çünki sinəmdəki çırpınan ürək
Sadiq dostum olub bil bu gündədək.
Övladlar, nəvələr mənim sərvətim,
Tükənməz xəzinəm,varım, dövlətim.
Cah-cəlalım, təmiz qazandığım ad,
Odur mənə daim verən qol-qanad.
Zakir, saf sevgidir səni yaşadan,
Gözün açıq oldu, qalmadın nadan.
Onunçun qızıltək artdı qiymətin,
Çin oldun neçə cür arzu, niyyətin.
Ürəyində daim Allah sevgisi,
Oldu həyatının parlaq güzgüsü.
Vətənə, torpağa sən bağlı oldun,
Onlara sonadək sən sadiq qaldın.
Köç edəndə yalnız sən bu dünyadan,
Həmin sevgi onda çıxacaq candan.

## TƏBİƏT LÖVHƏLƏRİ

Mən səhərdən təbiətin qoynundayam,
İstəyirəm gözəlliyə baxıb doyam.

Günlərim də gəlib keçir axarıyla,
Yayı, qışı, payızı və  baharıyla.

Heç bilmədim ötən illər necə keçdi,
Demə onlar gündüz keçdi, gecə keçdi.

Soruşan yox, niyə yatıb qalmışam sən,
Elə boş-boş xəyallara dalmışam sən

Qalx ayağa, təzə doğan günəşə bax,
Bu dünyaya biz beş günlük gəldik qonaq.

Düzlərdəki gül-çiçəyə gülsün üzün,
Gözəllikdən qoy məst olsun içib gözün.

Təbiətin camalına vurğunam mən.
Kim deyər ki, qocalmışam, yorğunam mən.

Dərələrdən  şır-şır axan buztək bulaq
Bu yrlərin nemətindən verir soraq.

Bu dağ, meşə geyinibdir yaşıl libas,
Bağ-bağçada yetişibdir ərik, gilas.

Necə gözəl rəsm çəkmiş gör Yaradan,
Bu rəngləri, çalarları tapmış hardan?!

Baxın necə açılmışdır tər çiçəklər,
Dağ-dərəyə çox yaraşır bər-bəzəklər.

Xoş ətrindən bihuş oldum bu güllərin,
Cəh-cəhindən məmnun oldum bülbüllərin.

Gözəlliyin hikmətini duyam gərək,
Bu yerlərdə ayaq izi qoyam gərək.

Nə gözəldir kənd yerində çay kənarı,
Sevgilimlə burda gəzsəm gecə yarı.

Qoy sərin meh sığallasın üzümüzü,
Eşqin odu qamaşdırsın gözümüzü.

Qoca palıd ağacının altında biz,
Öpüşəndə tez-tez vursun ürəyimiz.

Burda udsaq ciyərlərə təmiz hava.
Onda lazım olmaz bizə dərman, dava.

İki sevən ağac altda pıçıldaşaq,
Qəlbdə sevgi çaylar kimi aşıb-daşaq.

Şirin-şirin söhbət edək, sevişək biz.
Təkrar-təkrar qucaqlaşaq, öpüşək biz.

Aldıca mən gül dodaqdan neçə öpüş,
Yada düşdü olmuş çoxlu belə görüş.

Gəzdikcə mən sevgilimlə bu yerləri,
Tam unutduq ürəkdəki dərd-səri.

Təbiətin camalına heyran olduq,
Hər ikimiz çəmənlikdə yatıb qaldıq.

Ləzzət aldıq təbiətin qoynunda biz,
Hava təmiz, ürək təmiz, sevgi təmiz.

Təbiətin hikmətinə valeh oldum,
Gəzintidən ürək dolu razı qaldım

## SƏNİN MƏHƏBBƏTİN YAŞADIR MƏNİ

Sənsiz bir zülmətdir mənə kainat,
Sənsiz mənasızdır mənə bu həyat.
Sənsiz qəmxanadır mənə toy-büsat,
Gəzirəm Məcnuntək çölü, çəməni,
Sənin məhəbbətin yaşadır məni.

Vəfalı yarın heç qiyməti olmaz,
Heç vaxt aşiq ona biganə qalmaz.
Yanımda olmasan kefim açılmaz,
Gəl dağıt çöhrəmdən dumanı, çəni,
Sənin məhəbbətin yaşadır məni.

Əsrlər keçsə də ölməz məhəbbət,
Sevgiyə ehtiyac olacaq əlbət.
Qoyma yaxın düşsün ona xəyanət,
Gərək incitməsin sevən sevəni,
Sənin məhəbbətin yaşadır məni.

Zakir, öz yarından razı qalanda,
Səadət günəşi doğar cahanda.
Bunu iftixarla deyər hər yanda:
Ölsəm də sevmərəm bil ki, özgəni,
Sənin məhəbbətin yaşadır məni!

## İKİ QƏLB BİR OLANDA

Həm yazdır, də qışdır,
Həyata bir naxışdır.
Eldən gələn alqışdır,
Gücdür, qüvvətdir canda,
İki qəlb bir olanda.

Yaşar sevginin adı,
Şirin vüsalın dadı.
Sönər hicranın odu,
Donar damarda, qanda
İki qəlb bir olanda.

Gözəllikdə o təkdir,
Ömrə-günə bəzəkdir.
Təzə açan çiçəkdir
Ətirli gülüstanda,
İki qəlb bir olanda.

Quşlartək qanad açar,
Göyün üzündə uçar.
Pis niyyətlərdən qaçar,
Müdrik olar cavan da
İki qəlb bir olanda.

Şair Zakir qocalar,
El gözündə ucalar.
Məhəbbətdən güc alar,
Eşqə düşən zamanda,
İki qəlb bir olanda.

## AY İŞIĞINDA

Ay işığı səpələndi,
Təzə qartək yer üzünə
Elə bil ki, nur ələndi
Bağ-bağçanın üz-gözünə.

Görüş yeri işıqlandı,
Sevgilimlə şad olduq biz.
Sevgi odu qəlbdə yandı,
Bu işdən razı qaldıq biz.

Xoş danışmaq, qəlbdən gülmək
Bu dünyanın bəzəyidir.
Həm sevmək, həm də sevilmək
Xoşbəxtliyin özəyidir.

Sevilirsə əgər insan,
Ürəyi bir dağa dönür
Sevgisində yoxsa yalan
O, özünü xoşbəxt sanır.

Ay işığı, ay işığı,
İşıqlandır gözümüzü.
İşıqlandır solu, sağı
Qoy bir görək özümüzü.

Yanında nazlı afətin,
Qəm-qüssədən kənar olum.
Məhəbbətin atəşində
Qoy yanaraq mən kül olum.

## MƏHƏBBƏTDİR YAŞADAN

Aşığın telli sazını,
Xanəndənin avazını,
Gözəllərin də nazını
Saf məhəbbətdir yaşadan.

Məhəbbətsiz sevgi olmaz,
Ürəklərə sevinc dolmaz.
Qışda çiçəklər də solmaz,
Saf məhəbbətdir yaşadan.

Ömür keçir çox sürətlə,
Əsil sevgi, məhəbbətlə.
Məni dünyada hörmətlə
Saf məhəbbətdir yaşadan.

Getmə uzaq, nazlı canan,
Getsən, olaram pərişan.
Zakiri də belə cavan
Saf məhəbbətdir yaşadan.

# MÜXTƏLİF ŞEİRLƏR

## SÖZ

Söz var, eşidəndə könül dərmanı,
Söz var, həkim kimi bağlar yaranı.
Söz  var ki, dil ondan görməz ziyanı,
Söz də var, hikmətlə bəzər cahanı.
Ürəklərə məlhəm, bir dərmandı söz,
Böyük dahi, müdrik bir loğmandı söz.

Söz var, sahibini verər güdaza,
Söz var, qoymaq olmaz dilə, ağıza.
Söz var, onu desən, alarsan cəza,
Sözdə var, haram tikə olar boğaza.
Bəzən lap əsəbdi, həyəcandı söz,
Çox vaxt şər-xətadı,dava-qandı söz.

Söz var sevgi, məhəbbətdən güc alar,
Etibardan, sədaqətdən güc alar,
Elə bağlı saf hörmətdən güc alar,
Söz var ki, onunla insan ucalar,
Nazənin bir sənəm, şux canandı söz,
Qəlbi məftun edən bir ceyrandı söz.

Uzun dil insana ziyan gətirər,
Kobud olsan, bir gün nüfuzun itər.
Bəd əməldən qazanc olar dərdi-sər,
Bu iş gül əvəzi tikan bitirər.
Qəlbi yaralayan ox, kamndı söz,
Bəzən dediyindən çox peşmandı söz.

Söz də var heç dosta söyləmək olmaz,
Ağızdan çıxarsan, sirr kimi qalmaz.
Sirri faş edənsə, alacaq qapaz,

Çünki söz yarası heç vaxt sağalmaz.
Məclisdə arifə bir nişandı söz
Gözəl kimi zülfi-pərişandı söz.

Əvvəlcə düşünək deyərkən sözü,
Sonra  peşman olub döyməyək gözü.
Yaxşı söz  xeyirə aparsın bizi,
Sevinclə yaşatsın saf qəlbimizi.
Yerində deyilsə, bir sultandı söz,
Cəsarətli əmr, bir fərmandı söz.

Gəlin gözəl nitqə sahib olaq biz,
Dil altda gizlənsin hər bir kəlməmiz.
Sözlər qoy süzülsün ağızdan təmiz,
Heç ziyan görməsin bundan ömrümüz.
Basılmaz bir igid, pəhləvandı söz
Çox vaxt, sahibinə bir zindandı sözə.

Zakir sözünü gəl müxtəsər de sən,
Buna əhsən desin eşidən, görən.
Səninlə fəxr etsin qoy doğma  Vətən,
Onda neçə  arzun çin olar hökmən.
Bir gözəl bağ-bağça, gülüstandı söz,
Həm şeir, həm qəzəl, həm dastandı söz.

## BAHAR

Qarşılayır səni tər bənövşələr,
Yaşıl libasını geyir meşələr.
Qızıl lalə ilə dolar guşələr,
Bülbüllər bağlarda cəh-cəhlə ötər.
Mübarək qədəmlə tez gəl, ay bahar,
Sənin gəlişində dərin məna var.

Fəsillər içində sənin səsin var,
Füsunkar körkəmin, gül nəfəsin var.
Gəlişinlə ana torpaq oyanar,
Hər tərəfi əlvan rəngə boyanar,
Mübarək qədəmlə tez gəl, ay bahar,
Qorxutmasın səni nə boran, nə qar.

Qar əriyər, canlanar şəlalələr,
Su artdıqca səs-küy salar dərələr.
Sevinər təbiət, ürəklər gülər,
Yaşamaq, yaratmaq eşqi yüksələr,
Mübarək qədəmlə tez gəl, ay bahar,
Sənin gəlişini hər kəs arzular.

Gəl, mənim yurduma şən həyat gətir,
Sevincli gün gətir, toy-busat gətir.
Lirik mahnı gətir, muğamat gətir,
Təzə ovqat gətir, ruha dad gətir,
Mübarək qədəmlə tez gəl, ay bahar,
Sənin gəlişində dərin məna var.

Günəş də bitkiyə sığalın çəkər,
Parlaq şüasını torpağa tökər.
Kəndlilər bu vaxtlar qalmazlar bikar,

Əkin yerlərinə toxumlar səpər,
Mübarək qədəmlə tez gəl, ay bahar,
Cücərsin əkilən bütün tarlalar.

Valehəm səndəki bu güc, qüdrətə,
Nə olar, bizi də çatdır nemətə,
Əbədi sülh gətir bu məmləkətə,
Qoy mənim vətənim dönsün cənnətə,
Mübarək qədəmlə tez gəl, ay bahar,
Böyük də, kiçik də səni arzular.

## DÜNYANIN QIZIL TACI

Siz həmişə çiçək təravətlisiz,
Etibarlı, əhdə sədaqətlisiz.
Çətin anda möhkəm, dəyanətlisiz
Başımızın qızıl tacı, qadınlar,
Bəşəriyyətin ehtiyacı qadınlar.

Həyat boyu sizə çox ehtiyac var,
Həm bizə dostsunuz, həm də gözəl yar.
Sizsiz dünya inan olar bir məzar.
Başımızın qızıl tacı, qadınlar,
Dərdimizin hər əlacı, qadınlar.

Sizlə artır bu ellərin qüdrəti,
Sizlə dünya xatırladır cənnəti.
Sizsiz yaşamağın yoxdur ləzzəti.
Başımızın qızıl tacı, qadınlar,
Kişiyə yar, ana, bacı qadınlar.

Ailənin hər sirri, sözü sizdədir,
Sevinci, kədəri qəlbinizdədir.
Qəlbi açıqsınız, nə var üzdədir,
Başımızın qızıl tacı, qadınlar,
Hamımızın entiyacı qadınlar.

Sizə ana hissi vermiş yaradan,
Nurlu dünyamızı sizsiz yaşadan.
Doymaq bilmirsiniz körpə baladan
Başımızın qızıl tacı, qadınlar,
Hamımızın ehtiyacı qadınlar.

## MƏKTƏBİM

*(Şabran (keçmiş Dəvəçi) şəhər T.Abbasov adına 1 saylı tam orta məktəbin 55 illik yubleyi münasibətilə)*

Yazdın tarixini sən əllərinlə,
İşinlə, gücünlə, əməllərinlə.
Hüsnünə qoşulan nəğmələrinlə
Mənə canımdan da əziz, məktəbim,
Ana kimi şən, gülərüz məktəbim.

Al günəşin şəfəqi var üzündə,
Qartalların vüqarı var gözündə.
İgidlərin hünəri var sözündə,
Mənə canımdan da əziz, məktəbim,
Ana kimi şən, gülərüz məktəbim.

Sən ömrümdə əbədi bir məşəlsən,
Şirin musiqisən, şeir-qəzəlsən.
Bəzəkli bir gəlin, şux bir gözəlsən,
Mənə canımdan da əziz, məktəbim,
Ana kimi şən, gülərüz məktəbim.

Məzunların yayılıbdır dünyaya,
Uğurları çatıb günəşə, aya.
Nə qədər doğmadır ana balaya,
Mənə canımdan da əziz, məktəbim,
Ana kimi şən, gülərüz məktəbim.

Şöhrətin yayılıb sənin hər yana.
Səs salmısan bütün Azərbaycana,
Uğurlar qazandır bizim Şabrana
Mənə canımdan da əziz, məktəbim,
Ana kimi şən, gülərüz məktəbim.

Sən Zakirin daim yanan çırağı,
Mənbəyi ellərdə olan bulağı.
Görüm azalmasın odu, ocağı
Mənə canımdan da əziz, məktəbim,
Ana kimi şən, gülərüz məktəbim!

## DÜNYAMIZI QORUYAQ

Daşqınlar, uçqunlar, amansız sellər,
Vulkanlar, tufanlar və zəlzələlər.
Fəlakət gətirir eh... nələr, nələr
Yatmayaq, insanlar, olaq biz oyaq,
Dünyamızın tarazlığın qoruyaq.

Müasir ölkələr silah oynadır,
Ara qarışdırır, qazan qaynadır.
Təbiət hamıya axı anadır,
Heç insaf deyil ki, onu tək qoyaq,
Dünyamızın tarazlığın qoruyaq.

Yer üzündə gözəl həyat solmamış,
Nə qədər ki axirbəşər olmamış.
Təbiət qisasın bizdən almamış,
Gəlin onun yaraların sarıyaq,
Dünyamızın tarazlığın qoruyaq.

Qlobal istilik, qasırğa, tufan,
Aramsız yağışlar verməyir aman.
Gec olar fəlakət yetişən zaman,
Vaxtı itirmədən gəlin bir olaq
Dünyamızın tarazlığın qoruyaq.

Təbiət anadır, acığı tutur,
Övlada hirslənir, aləmi qatır,
Bəlkə də, yuxudan bizi oyadır,
İstəyir hər zaman işə yarıyaq
Dünyamızın tarazlığın qoruyaq.

## İLLƏRİN ÖMRÜ

Üç yüz altmış beş gündür hər ilin ömrü,
Təqvimdə onların vardır öz yeri.
Canlı bir tarixdir, yetirsək nəzər,
Ötüb keçir bir-bir ömürdən illər.

İl var ki, şöhrətlə tarixə düşür,
Günləri sevinclə bir-bir ötüşür.
Xoş ovqatla ömür sürür insanlar,
Qalır yaddaşlarda çox-çox zamanlar.

İl var ki, irtica, qanla yazılır,
Günahsız insana məzar qazılır.
Birinci günündən bədbəxtlik yağır,
Daşdan, dəmirdən də qədəmi ağır.

İl var ki, gətirir ruzi, bərəkət,
Hamının üzündə gülür səadət.
O il çox bol olur ölkədə taxıl,
Zəmidən anbara taxıl-dən axır.

Ürəyimdə mənim belə arzum var,
İli gülə-gülə yola salsınlar.
İlimiz xoş olsun, canımız da sağ,
Uzun ömür sürək, xoşbəxt yaşayaq.

## NƏ DEYİM FƏLƏYƏ AX NƏ DEYİM MƏN !

Mən çox dostlarımla gəzdim dünyanı,
Aldığım ləzzətlər könül dərmanı.
Bir mənə de, görüm, o dostlar hanı?
Bu gün yox onlardan bir xəbər verən,
Nə deyim Fələyə, ax nə deyim mən!

## ATASININ BALASI

Çox vaxt görürsən ki, həddini aşır,
Düz addım atmağa ayağı çaşır,
Yolu keçənlərə bir-bir sataşır
Atasının bu ərköyün balası,
Olubdur Allahın böyük bəlası.

Sinəsini verib hərdən qabağa,
Pulları xərcləyir o, sola-sağa.
Qoşulub özü tək neçə axmağa
Atasının bu ərköyün balası,
Olubdur Allahın böyük bəlası.

Spirtli işkiyə çoxdan qurşanıb,
Bu işdə özünə "ad-san" qazanıb
İçməkdən daxili gör necə yanıb!
Atasının bu ərköyün balası,
Olubdur Allahın böyük bəlası.

"Ağ ölümlə" çoxdan o, dost olubdur,
Çəkib hərdən onu çox məst olubdur.
Həkim deyir, ömrü bir az qalıbdır,
Atasının bu ərköyün balası,
Olubdur Allahın böyük bəlası.

Hələ ətəyindən tökməyib daşı,
Olubdur şəhərin mahir "avtoşu"
Qazanır dostlardan çoxlu "alqışı,"
Atasının bu ərköyün balası,
Olubdur Allahın böyük bəlası.

O gün elə bil ki, dəliydi, dəli,
Maşında sürəti etdi yüz əlli.
Qəza törətdiyi tez oldu bəlli.
Atasının bu ərköyün balası,
Olubdur Allahın böyük bəlası.

Cana doysalar da atayla ana,
Çətin onlar dözə belə nadana,
Çünki beş illiyə düşdü zindana
Atasının bu ərköyün balası,
Olubdur Allahın böyük bəlası.

## NƏVƏLƏR

*(Oğlan nəvələrimə)*

Başımızın qızıl tacı,
Bəzən şirin, bəzən acı.
Hamımızın ehtiyacı
Tər çiçək, güldür nəvələr,
Nə şirin dildir nəvələr.

Gah yüyürür, gah da aşır,
Üstü-başı tez bulaşır.
Beş yaşından nəğmə qoşur,
Sanki bülbüldür nəvələr,
Almaz, inci, dür nəvələr.

Hünərlə sabahı quran,
Vətən keşiyində duran.
Düşmənlərin bağrın yaran
Cəsur əsgərdir nəvələr,
İgiddir, ərdir nəvələr.

Qorusun qoy Tanrı sizi,
Qəm tutmasın qəlbinizi,
Eşidək xoş səsinizi
Toyda, busatda, nəvələr.
Bu şən həyatda, nəvələr.

## MÜƏLLİM

Keşiyində durdun elmin, savadın,
Şagirdlərin oldu qolun-qanadın.
El-oba içində ucaldı adın,
Bizik sənin ən layiqli övladın,
Minnətdarıq sənə hər an, müəllim,
Qocaltmasın səni zaman, müəllim.

Günəş kimi daim işıq saçırsan,
Şagirdlərə qucağını açırsan.
Bizi görüb sevincindən uçursan,
Tələsirsən, sən həmişə qaçırsan,
Ayaq saxla, ey qəhrəman müəllim,
Qocaltmasın səni zaman, müəllim.

Bir ağacsan, şagirdlərin barındır,
Tükənməyən dövlətindir, varındır.
Saçlarına erkən düşən qarındır,
Haqq yoldasan, Allah sənin yarındır,
Kömək olsun qoy Yaradan, müəllim,
Qocaltmasın səni zaman, müəllim.

Səs salmısan öz işinlə cahana,
Yayılıbdır şan-şöhrətin hər yana.
Adın düşüb bu gün şerə, dastana.
Əhsən olsun sənin də öz ustana.
Çünki olub sənin ustan müəllim
Qocaltmasın səni zaman, müəllim.

## ŞAH VƏ XAİN VƏZİR

Şah Bəhram Gurun bir vəziri varmış,
Bu şəxsi Rast Rövşən adlandırarmış.

Ona tapşırmaqda  məmləkəti şah,
Elədi ömründə çox böyük günah.

Ölkəni vəzirə etibar etdi,
Özü kefə-şərab içməyə getdi.

Bəhramın işrətə başı qarışdı,
Vəzir qızıb, yaman həddini aşdı.

Verdi rəiyyətə "qulaqburması",
Başlandı biçarə kasıbın yası.

Səsin çıxaranı zindana saldı,
Müsadirə etdi, malını aldı.

Kimin ki əlində vardı dövləti,
Vəzir tələ qurdu ona xəlvəti.

Aldırdı əlindən bütün varını,
Malını, mülkünü, cavan yarını...

Bu minvalla neçə il belə keçdi,
Bu vəzir xəyanət yolunu seçdi.

İncidildi adlı-sanlı adamlar,
Çoxunun gözündə dünya oldu dar.

Boşaldı  xəzinə,  oldu boş çuval,
Ölkə görməmişdi heç belə bir hal.

Vəzir bənzəyirdi kinli dəvəyə,
Rəhmi gəlməyirdi hətta körpəyə.

Dağıdıb ordunun silah-sursatın,
O qazdı  padşahın ayağı altin.

Şaha xəbər çatdı, düşmənlər gəlir,
Bizim qoşun isə geri çəkilir.

Şah istədi təzə qoşun düzəltsin,
Düşmən üzərinə inamla getsin.

Ancaq gördü tamam xəzinə boşdur,
Demə, vəzir onu tora salmışdır.

Vəzir yalan dedi, girib min dona,
Bəhram şah vəziri atdı zindana.

Vəzirin  işini özü yoxladı,
Əməlin gördükcə qəlbi ağladı.

Bildi ki, günahsız yeddi yüz insan,
Zindanda çürüyür əsas olmadan.

Çoxlarının var-dövləti alınmış,
Nahaq yerə zindanlara salınmış.

Alıbdır əlindən qızıl qolbağı,
Çəkib gəlinlərin qəlbinə dağı.

Vəhşi yırtıcıtək bu qoca tülkü,
Çalib-talayıbdır onlaca mülkü.

Dağıdıb ölkənin bütün varını,
Sındırıb şahlığın dağ vüqarını.

Rast Rövşən törətmiş çox fitnə-fasad,
Bir sözlə, çıxarıb hər yerdə pis ad.

Hər gün itiləyib tamah dişini,
Altdan-altdan görüb o, öz işini.

Məhkəmə vəzirin işinə baxdı,
Gördü ki, günahı həddindən çoxdur.

Bu satqın, tamahkar, xain insanın,
Günahı saymaqla bitməz inanın.

Onun sonu  cəhənnəmlik olmalı,
Ondan yalnız bizə ibrət qalmalı.

Şah əmr etdi, dar ağacı qurulsun,
Bu xain vəzirin boynu vurulsun.

Son sözü deyəndə vəzir tutuldu,
Ürəyi dəhşətdən kədərlə doldu.

Dedi, qarşınızda günahkaram mən.
Xəcalət çəkirəm əməllərimdən.

Nəhayət, xaini çəkdilər dara,
Bu, bir ibrət oldu çox insanlara.

Layiqli ölümlə vəzir görüşdü,
Xain insan kimi tarixə düşdü.

## ÖMÜR GEDİR

Dəqiq saat kimi axarı ilə,
Payızı, sərt qışı, baharı ilə,
Sevinci, kədəri, qubarı ilə,
Gözüm görə-görə ömürüm gedir.
Vəfasız dost kimi məni tərk edir.

Çiçək açıb qəlbimdəki amallar,
Gerçəkləşib şirin-şirin xəyallar.
Düşündürür bəzən məni suallar,
Gözüm görə-görə ömürüm gedir.
Vəfasız dost kimi məni tərk edir.

Ürək deyir sən hələ də yatıbsan,
Fürsətin daşını çoxdan atıbsan.
Artıq gəlib son mənzilə çatıbsan,
Gözüm görə-görə ömürüm gedir.
Vəfasız dost kimi məni tərk edir.

Al qələmi ələ, Zakir, yaz, yarat,
Şeirlərin açsın yenə qol-qanat.
Heç kimə qalmayıb vəfasız həyat,
Gözüm görə-görə ömürüm gedir.
Vəfasız dost kimi məni tərk edir.

## YAŞA MƏKTƏBİM

*(Məzunu olduğum Şabran (keçmiş Dəvəçi) şəhər T.Abbasov adına tam orta məktəbə həsr olunur)*

Dağma ana kimi sevdin sən bizi,
Nuruna boyadın şən qəlbimizi.
Bizim ömrümüzə qoydun sən izi
Bu dünya durduqca yaşa, məktəbim,
Dayan xoşbəxtliklə qoşa, məktəbim!

Səndən elm aldı min-min övladın,
Şagirdlərin oldu qolun qanadın.
Yazılıb tarixə şərəfli adın,
Bu dünya durduqca yaşa, məktəbim,
Dayan xoşbəxtliklə qoşa, məktəbim!

El içində yaxşı adın-sanın var,
Yetirmisən igid oğullar, qızlar.
Səninlə əkizdir çoxlu uğurlar,
Bu dünya durduqca yaşa, məktəbim,
Dayan xoşbəxtliklə qoşa, məktəbim!

Günəşlə bir yatıb, bir oyanmısan,
Elmin işığına sən boyanmısan.
Rayon təhsilində öndə olmusan
Bu dünya durduqca yaşa, məktəbim,
Dayan xoşbəxtliklə qoşa, məktəbim!

Zakir deyər, xidmət elə Vətənə,
Sürəkli alqışlar qoy gəlsin sənə.
Qoynun balalarla qoy dolsun yenə,
Bu dünya durduqca yaşa, məktəbim,
Dayan xoşbəxtliklə qoşa, məktəbim!

## TOY

*(Ailə həyatı qurmağımın 40 illiyi münasibətilə)*

Üç gün, üç gecə toy çalındı bizə,
Tanrı özü yetdi köməyimizə,
Fərəh, sevinc doldu ürəyimizə.
Uçmaq üçün  qanad verdi bizə toy,
Şad, mənalı həyat verdi bizə toy.

Sevdik bir-birini saf məhəbbətlə,
İşlədik, yaşadıq halal zəhmətlə,
Çəkildi adımız daim hörmətlə,
İşıq saçdı ömrümüzə toyumuz,
Ailəmizdə artdı nəfər sayımız.

O toyumuz yaşar mənim sözümdə,
Xoş anları çəkilməyir gözümdən.
Sən halımı oxu mənim üzümdən,
Xatirələr qalıb bizə o toydan
Fərəh gəlir qəlbimizə o toydan.

Toyumuzdan qırx il belə ötsə də,
Qocalsaq da, gəncliyimiz getsə də,
Yaddan çıxsa, çox günümüz itsə də,
Yaşayır dilləri gəzə-gəzə toy,
Saf, mənalı həyat verib bizə toy.

## RAMAZAN - ZİYARƏT AYI

Ramazan, Allahın ziyafət ayı,
Təqvimdə olmayıb heç sənin tayın.
Xeyir-bərəkətdir hamıya payın,
On bir ayın sultanısan, Ramazan.

Əzəl gündən sən olmusan müqəddəs,
Sənin gəlişindən sevinir hər kəs.
Verirsən insana bir yeni nəfəs,
Hər bir dərdin dərmanısan, Ramazan.

Oruc tutdum şərafətlə bu ayda,
Vardır bu əməldə çox ciddi qayda.
Gördüm bu işdə mən ziyadə fayda,
Möminlərin heyranısan, Ramazan.

Bu ayda çəkilir böyük əziyyət.
Edilir tanrıya hər gün ibadət.
Dilənir allahdan sonsuz mərhəmət,
Bağışlanma imkanısan, Ramazan.

Bu ayın bəzəyi Qədr gecəsi,
Bütün il boyunun son nəticəsi.
Duaların haqqa yetişən səsi,
Ömrümüzün mehmanısan, Ramazan.

Ey Zakir, həmişə düz yolla gedək,
Oruc, namaz vaxtı dualar edək.
"Qurani-Kərim" olsun qoy bizə kömək,
Sən Allahın fərmanısan, Ramazan,
On bir ayın sultanısan, Ramazan.

## A QOCAMAN MƏKTƏBİM

*(Pirəbədil kənd orta məktəbinin 100 illiyinə)*

Sən yurdumun elm, təhsil ocağı,
Şagirdlərə qoynyn ana qucağı.
Yandırırsan ürəklərdə çırağı.
Otaqların çılçıraqban, məktəbim.
Yaşa-yaşa, a qocaman məktəbim.

Çox insanlar olub sənin məzunun,
Şöhrətlidir adı oğul, qızının.
Şəfəqi var səndə dan ulduzunun
Ala bilməz səni duman, məktəbim.
Yaşa-yaşa, a qocaman məktəbim.

Mən də burda bir vaxt təhsil almışam,
Müəllimlərimdən razı olmuşam.
Sən cavan qalmısan, mən qocalmışam
Yüz yaşında, mənim cavan məktəbim.
Yaşa-yaşa, a qocaman məktəbim.

# GƏNCLİK NƏĞMƏSİ

Gənclik ömrün gözəl bahar çağıdır,
Tər güllü, çiçəkli bağça, bağıdır.
Öz atını çapıb sürətlə gedir,
O, saf məhəbbətlə, cürətlə gedir.
Sabahın ən həzin nəğməsi gənclik,
Tüknməz arzular çeşməsi gənclik.
Gənclik şən həyatda olan həvəsdir,
Gənclik gələcəyə gedən nəfəsdir.

Mənəvi zənginlik, əxlaqi saflıq,
Zehni qabiliyyət, yüksək fəallıq.
Gəncliyə xas olan bu xüsusiyyət
Dahilərdən alıb ən yüksək qiymət.
Şərəf hissi, çəxsi qurur və vicdan
Gəncləri qoruyur hər cür bəladan.
Əxlaq normaları, etik qaydalar
Gündəlik həyata vəsiqə alır.
Saf ruh, sağlam bədən, çoxlu hərəkət,
Var qüvvə, gümrahlıq, inam, cəsarət,
Qaynar həyat, qurub-yaratmaq eşqi
Binalar, qurğular ucaltmaq eşqi,

Gəncləri sabaha gedən yollarda
Gözləyir çovğunda, boranda, qarda.
Axtar dostum, onu orda taparsan,
Gördüyü işlərdən razı qalarsan,
Sərhədi qoruyan gənclərin bu gün
Vətən sevgisidir qəlbi büsbütün.
Yaşlılar, gənclərə yol verin görək,
Onlar heç kimsədən almadan kömək
İrəli gedərək versinlər qərar,

Gənclərin hər işdə cəsarəti var.
Mayakdır sabaha gedən yollarda,
Gəncliyə güvənsək, qalmrıq darda.

Məhəbbətə daim köməkdir gənclik
Sağlam ailəyə bəzəkdir gənclik.
Gələcəyin rəmzi, bir simvoludur,
O xalqın var gücü, vuran qoludur.
Xəyal zirvəsindən boylanan gənclik,
Ümid çeşməsindən güc alan gənclik.
Əlindədir sənin  hər uğurların,
Səndədir ümidi bizim diyarın.
Hər zamanda yaxşı təlim-tərbiyə,
Gənclərin nüfuzun qaldırıb göyə.
Sınaqlardan çıxmış əmək vərdişi
Öyrədib gənclərə ən çətin işi.
Cəmiyyətdə vardır gənclərin yeri,
Yaşlılardan onlar  qalmırlar geri.

Bir zamanlar mən də bir gənc olmuşam,
Ömür sürüb, indi yaşa dolmuşam.
Qəlnimdə hələ də gənclik odu var,
Hər il görüşümə gəlir ilk bahar.
Ağarsa da bu gur saçın telləri,
Unudulmaq bilmir gənclik illəri.
Keçmişin bağrını qoparan gənclik,
Bu günü sabaha aparan gənclik!

Sən ömrün yolunun şah əsərisən,
Bu elin, bu yurdun mərd əsgərisən.
Sən düşmənə vermə heç vədə aman,
Qoy xöşbəxt yaşasın şən Azərbaycan.
Xalqımın sabahı görən gözüsən,

Daşdan keçən  mərd igidlər sözüsən.
Gəncliklə qoy Vətən açsın tər çiçək,
Vursun o güllərdən yurda min bəzək.
Şadlansın bu elin gənc oğlu, qızı,
Parlasın onların  tale ulduzu.

## MƏKTƏBİM

*(Gəndov kənd  tam orta məktəbin 85 illik yubileyi münasibətilə)*

Təhsil xəzinədir, elm isə açar,
Bağlı qapıları hünərlə açar.
Bilik yollarına daim nur saçar.
Gəl öpüm üzündən, ana məktəbim,
Qoyma üzə kədər qona, məktəbim!

Mənə çox doğmadır tarixin sənin,
Uğurlar qazanıb hər keçdiyin gün.
Saymaqla qurtarmaz heç zəfərlərin,
Gəl öpüm üzündən, ana məktəbim,
Çatasan söhrətə, şana, məktəbim!

Burda can qoyubdur gör neçə  insan,
Adların saymaqla qurtarmaz inan.
Dünyasın dəyişib çox qoca, cavan,
Gəl öpüm üzündən, ana məktəbim,
Qoyma eşqim qəlbdə dona, məktəbim!

Tarixini yazdım sevgi ilə mən,
Çox-çox məmnun qaldım olub-keçəndən.
Böyük elm ordusunun sərkərdəsisən,
Gəl öpüm üzündən, ana məktəbim,
Ruhum gəlsin yenə cana, məktəbim!

Sabahla addımla, ey elm məbədi,
Qəmsiz və kədərsiz yaşa əbədi.
Qazanan uğurlar hələ heç nədir,
Gəl öpüm üzündən, ana məktəbim,
Qoyma bu görüşü sona, məktəbim!

Səadət günəşi qoy gülsün üzə,
Ən gözəl xöşbəxtlik yar olsun sizə.
Elmin ziyasıyla Vətəni bəzə,
Gəl öpüm üzündən, ana məktəbim,
Keçsin məhəbbətin cana, məktəbim!

## ÜRƏYİM

Haqsızlıq görəndə sızlar, göynəyər,
Qorxmayıb hər sözün düzünü deyər,
Şübhələr, "bəlkələr" içini yeyər,
Sarsıntı keçirib yanar ürəyim,
Yanıb-yanıb külə dönər ürəyim.

Dosta dost söyləyər, düşmənə düşmən,
Haqq yerin tutanda sevinər qəlbən.
Gecə də, gündüz də əziyyət çəkən
Hər kəsin halına yanar ürəyim,
Yanıb-yanıb külə dönər ürəyim.

Kədərə, sevincə mənimlə şərik,
Sakitlik olanda hey dərdləşərik.
Tanrım, pozulmasın onunla birlik,
Yoxsa alovlanıb yanar ürəyim.
Yanıb-yanıb külə dönər ürəyim.

Saf ürək həyatda saf toxum əkər,
Dözər əzablara, əziyyət çəkər.
Onu qorumasam belimi bükər,
Dözməz bu halətə yanar ürəyim.
Yanıb-yanıb külə dönər ürəyim.

Fələk zəhər qatdı isti aşıma,
Mərdüməzar adam çıxdı qarşıma,
Duran yerdə bəla gəldi başıma,
Mənim bu halıma yanar ürəyim,
Yanıb-yanıb külə dönər ürəyim.

Zakirəm, gözümü həyat açıbdır,
Yaxşı əməllərim ətir saçıbdır.
Ürəyim sevgidən söhbət açıbdır,
Sevgisiz od tutub yanar ürəyim,
Yanıb-yanıb külə dönər ürəyim.

## YAĞIŞ YAĞIR
*(M.Müşfiqə)*

Yağış yağır səhər tezdən, xırda yağış,
Yer üzünə rəssam kimi vurur naxış.

Cana gəlir ağacların budaqları,
Yaz olanda bol olacaq elin varı.

Yağış yağır, susuz çöllər cana gəlir,
Təbiətdə canlı aləm qana gəlir.

Yağ ey yağış, dərələrə, düzlərə yağ,
Bu gün kəsmə, sevir səni böyük, uşaq.

Yağ ey yağış, əgər bir il sən yağmasan,
Hər tərəfdə yer-göy yanar quraqlıqdan.

Boz çöllərin onda halı necə olar?
Təbitə bəzək verən güllər solar.

Yağış yağır sakit-sakit, xırda-xırda.,
Göy üzündən sevinc gələr ana yurda.

Yağış yağır yer üzünə, yaz yağışı,
Yağdıqca o, qazanacaq yüz alqışı.

Yağ, ey yağış, Vətən düzü açsın çiçək,
Zakirin də sinəsində gülsün ürək.

## MÜƏLLİM ÖMRÜ

Titrək addım ataraq biz,
İlk dəfə məktəbə gəldik.
Döyündü körpə qəlbimiz,
Sevincimizdən kövrəldik.

Qucaqladı ana kimi
İlk gündən müəllim bizi.
Həlim, mehriban çöhrəsi
Sevindirdi qəlbimizi.

O, əbədi bir məşəltək
Yolumuza işıq saçdı.
Əzizləyib bizi tək-tək
Elmə doğru cığır açdı.

Ürəyindəki hərarət
Bizimçün od-ocaq oldu.
Onun ayaq qoyduğu yer,
Doğma, əziz bucaq oldu.

Uolumuzda saç ağartdı,
Bənzəri var qarlı dağa.
Tutaraq o, əlimizdən
Bizi apardı qabağa.

## SAĞLAMLIĞIN DÜŞMƏNİ

Sağlamlığın bir neçə düşməni var,
İşıqlı həyatı məhv edir onlar.

Düzgün seçilməyən bir ömür yolu,
Gedir axıracan səhvlərlə dolu.

Birinci düşməndir acgözlük, tamah,
Adəmin vaxtından sayılıb günah.

Haram yollar ilə yığsan var-dövlət,
Xeyir verməyəcək sənə nəhayət.

Paxıllıq, kin, qəzəb, intiqam,nifrət,
Təmiz düşünməyə yol verməz əlbət.

Beləsinin qəlbi kədərlə dolar,
Bahar fəslində də saralar, solar.

Özündən razılıq, şöhrət, lovğalıq,
Heç vaxt ətə, qana verməyib sağlıq.

Beləsi bir çürük qoza bənzəyər,
Ondan uzaq olmaz pis-pis əməllər.

Yalan, hiyləgərlik,yaltaqlıqla sən,
Özün olacaqsan özünə düşmən.

Hiyləgər tülkitək girir min dona,
Hər günü yalanla vurur o, sona.

İnsana düşməndir qorxaqlıq inan,
Bəzən qəddar olur ən qorxaq ilan.

Yalan söyləmək də iyrənc qəbahət,
Yalanlar içində itər həqiqət.

Səhlənkar, laqeyd olan insanlar,
Bəla olduğunu sonralar anlar.

Xəstə, ölgün ruhla yaşasa belə,
Boş yerə ömrünü verərlər yelə.

Mənə qulaq asın, siz bircə anlıq,
Qorxulu düşməndir bir də nadanlıq.

Özgə səadətin istəməyənlər,
Əvvəlcə özünə zərərlər verər.

Yaradan sevməyir bəd əməlləri,
Bəd işə sərf etmə quran əlləri.

Dünya fani, ölüm ani, qulaq as,
Bunu yada salsan, dostum, pis olmaz.

Şərəf, ləyaqətlə ömrü yaşa sən,
Axirət günündə xeyir görəsən.

Bəzəsin dünyanı gözəl əməllər,
Silinsin qəlblərdən.tamam qəm-kədər.

Yox olsun həyatdan, Zakir, pis vərdiş,
Eşidib bilənlər desin min alqış.

*2012*

## SAMOSLU PİFAQOR

Yeni eramızdan beş yüz il qabaq,
Göz açdı dünyaya yetim bir uşaq.

Pifaqor qoydular onun adını,
Dayə ayırdılar yaşlı qadını.

Bu uçaq gündə bir buğda böyüdü,
Müdriktək götürdü sözü, öyüdü.

Bir kimsə bilmədi bu zirək uşaq,
Gələcəkdə böyük dahi olacaq.

Təlim-tərbiyəsi təşkil olundu,
Müəllimlər xidmətində bulundu.

İlk gündən pis işdən o oldu uzaq,
Bütün kitablara göstərdi maraq.

Səyləri heç zaman olmadı əbəs ,
Bir çox elmlərə göstərdi həvəs.

Məntiq, riyaziyyat, bir də fəlsəfə,
Onun marağında oldu hər dəfə.

Sevdi həndəsəni, sadə hesabı,
Yazdı onlar haqda neçə kitabı.

Bu cavan özündə tapıb cəsarət,
Qədim Hindistana etdi səyahət.

Baş çəkdi Misirə, Babilistana,
Riyazi gözüylə baxdı cahana.

Şərqdən çoxlu elmi fikir gətirdi.
Dünya səyahətin axır bitirdi.

Qayıdıb vətənə məktəb yaratdı,
Köklü ağaç kimi qol-budaq atdı.

Pifaqor teoremi kəşf olunantək,
Riyaziyyat elminə vurdu min bəzək.

Sevincdən Pifaqor kəsib yüz öküz,
Şəhər əhli ilə gəldi üzbəüz.

Dünyada ən böyük bir süfrə sərdi.
Hamını çağırıb qonaqlıq verdi.

Orta əsrlərdə dəlil, sübutla,
Edib həndəsədə çoxlu isbatlar.

Düzxətli fiqurlar, çoxbucaqlılar,
Həndəsi, harmonik, digər nə ki var.

Aldı isbatını mütəfəkkirirdən,
Alqışlar qazandı alim hər yerdən.

Pifoqor təlimi ölməz bir əməl,
Qoydu sahibinə əbədi heykəl1

## FİKİRLƏR

Tarixə adın salır
Kəşflərə nail olur,
Döyüşdə zəfər çalır.
Vuruşur fikirlər

Fikir vardır hər yerdə,
Sevincdə və kədərdə.
İzi qalır ömürdə
Sayrışır fikirlər.

Elmdə ay, ulduz olur,
İşığı qəlbə dolur.
Bəzən gül kimi solur
Qırışır fikirlər.

Göyə qalxar, yerə enər,
Raket kimi yanar, sönər.
Ağriya, acıya dönər,
Qarışır fikirlər.

Nə deyim mən fələyə,
Şeytan girir ürəyə.
Xəncər cancır kürəyə,
Qəlbi deşir fikirlər.

## MƏZUNLAR

Elm xəzinədir, varı tükənməz,
Bilik bir çıraqdır, işığı sönməz.
Ağılsa dəryadır, dibi görünməz,
Şəfəqin sökülən danı, məzunlar.
Məktəbin şöhrəti-şanı, məzunlar!

Siz ata-ananın gülü, çiçəyi,
Yurda zinət verən bəri-bəzəyi,
Sizsiniz yaradan xoş gələcəyi,
Şəfəqin sökülən danı, məzunlar.
Məktəbin şöhrəti-şanı, məzunlar!

Baxdınız həyata siz açıq gözlə,
Yazdınız tarixi həqiqi sözlə,
Çıxın el içinə siz gülər üzlə,
Şəfəqin sökülən danı, məzunlar.
Məktəbin şöhrəti-şanı, məzunlar!

Qorxutmadı sizi nə boran, nə qar,
Elmin qüdrətilə açıldı yollar.
Güldü ömrünüzə nəcib arzular,
Şəfəqin sökülən danı, məzunlar.
Məktəbin şöhrəti-şanı, məzunlar!

Daim ürəyiniz fərəhlə dolsun,
Görəndə düşmənin bənizi solsun.
Hər işdə Yaradan sizə yar olsun,
Şəfəqin sökülən danı, məzunlar.
Məktəbin şöhrəti-şanı, məzunlar!

## QOCALIQ-KAMİLLİK DÖVRÜ

“Qocalıq” sözünü deyəndə çoxu,
Keçirir bolluca həyəcan, qorxu.

Sanır ki, çatıbdır həyatın sonu,
Hər yanda gözləyir Əzrayıl onu.

Gecələr, gündüzlər hey yeyib-yatır,
Əməyi, zəhməti o, tamam atır.

Fikirlə, xəyalla keçirir günü,
Beləcə o, başa başa vurur ömrünü.

Ancaq ömrün davamıdır qocalıq,
Bir müdrirlik məqamıdır qocalıq.

Qocalıq həyatın bir barlı dövrü,
Uca dağ başının bir qarlı dövrü.

Müdrik olduğunu almayıb saya,
Nəsihət verirlər bəzən qocaya:

-Bir məclis olanda, məsləhət budur,
Sən yaşlı adamsan, yerində otur,

Yaşını unudub, həddini aşma,
Deyib gülənlərə sən heç qarışma.

Dükana, bazara getməsən əgər,
Qan təzyiqin düşər, kefin düzələr.

Birdən toya getsən, orda oynama,
Sulu qazan kimi daşıb qaynama.

Sən artıq qocasan, sakitcə otur,
Susanda insanın  qiyməti artır.

Bəsdir, əkdin daha gülü çiçəyi,
İndi xəyalında qur gələcəyi.

Başın gicəllənər, üzün saralar,
Xəstəlik canında daim yer alar

Ürəyin də baxmaz bir gün sözünə,
Qəfildən qaranlıq çökər gözünə.

A kişi, qocasan çölə çıxma sən,
Soyuqda, şaxtada xəstələnərsən.

Düzəliş elə sən davranışında,
Az gəz, otur evdə-ocaq başında.

Üzülüb düşərsən yorğan-döşəyə,
Heç çıxa bilməzsən tamam eşiyə.

Çörəyin, suyun var, şürür elə sən,
Gərək bağ-bağçanı hər gün gəzəsən.

Bəsdir qulluq etdin bu ağaclara,
Onlar da əlindən gəliblər zara.

Belləmək, sulamaq, həm dərmanlamaq,
Səni əldən salır, çünki, ay axmaq!

Dinləyib diqqətlə deyilənləri,
Dedim, qocalara atmayın şəri.

Əzəldən yoldaşdır mənim ilə iş,
Ona uşaqlıqdan etmişəm vərdiş.

Dayansam, donacaq damarda qanım,
Nasaz olacaqdır bu sağlam canım.

Qorxmadım, həyatın qarlı qışından,
Zamanın qəzəbli, sərt baxışından.

Əllərim öyrəndi fiziki işə.
Piyada gəzməyi etmişəm peşə.

Uzaqda dayandım pis vərdişdən mən.
Sağlamlıq üzümə güldü o gündən.

Əmək, iş saxlayıb məni çox cavan,
Tənbəllik yad olub mənə hər zaman.

Vurur öz ritmiylə sinəmdə ürək,
Sevgi, məhəbbətdir ürəyə kömək.

Durub qulluğumda ömür yoldaşım,
Vardır o qadına böyük alqışım.

Övladdan yariyan valideynlər,
Bu cür xoşbəxtliyə verirlər dəyər.

Bütün qocaların qədrini bilin,
Onların üzündən kədəri silin.

Yaşasın kamillik dövrünü onlar,
Qoca adamların başda yeri var.

Qoy daim çıraqban olsun bu həyat,
Qocalar yaşasın hər vaxt bəxtiyar.

## ƏCƏL APARAR SƏNİ

Deyirlər ki, çaylar tərsinə axmaz,
Əzrayıl qocaya, cavana baxmaz.
Ölümü heç nəylə saxlamaq olmaz,
Vaxt çatanda əcəl aparar səni,
Bu fani dünyadan qoparar səni.

Poladdan dirəyi əlinlə əysən,
Qızıldan bahalı libas da geysən,
Nə qədər təbii yemək də yesən,
Vaxt çatanda əcəl aparar səni,
Bu fani dünyadan qoparar səni.

Yüz min dəvə yüklü varın olsa da,
Bağda hər meyvədən barın olsa da,
Hər yerdə tanışın, yarın olsa da,
Vaxt çatanda əcəl aparar səni,
Bu fani dünyadan qoparar səni.

Şeytanla yaxın dost olsan da əgər,
Sən ondan xeyir yox, görərsən zərər.
Olsan da pəhləvan, igid, cəsur, ər,
Vaxt çatanda əcəl aparar səni,
Bu fani dünyadan qoparar səni.

Çalış tamah səni tora salmasın,
Qəlbinə paxıllıq, acıq dolmasın,
Nə qədər istəsən də üzün solmasın,
Vaxt çatanda əcəl aparar səni,
Bu fani dünyadan qoparar səni.

Doymayıb dünyadan gözün, a Zakir,
Var hələ deyəsi sözün, a Zakir.
Təzə mizrab istər sazın, a  Zakir,
Vaxt çatanda əcəl aparar səni,
Bu fani dünyadan qoparar səni.

## BİR ƏSƏRDİR MƏNİM ÖMRÜM

Həyatda heç kəsdən almadım kömək,
Allaha sığındım, bel bağladım tək.
Vurdu axarıyla sinəmdə ürək,
Çətinliyə sinə gərdi mənim ömrüm,
Yazan olsa, bir əsərdir mənim ömrüm.

Şeytana aldanıb, yolu azmadım,
Yalan danışmadım, quyu qazmadım.
Özgə ocağında durub qızmadım,
Çətinliyə sinə gərdi mənim ömrüm,
Yazan olsa, bir əsərdir mənim ömrüm.

Çalışdılar məni atdan salsınlar,
Ağzımı, burnumu tez qanadsınlar.
Aldadıb dövlətə, pula satsınlar,
Çətinliyə sinə gərdi mənim ömrüm,
Yazan olsa, bir əsərdir mənim ömrüm.

Yaşadım həmişə dərdi-sərimlə,
Bağladım yaramı öz əllərimlə.
Açdım haqq qapısın əməllərimlə,
Çətinliyə sinə gərdi mənim ömrüm,
Yazan olsa, bir əsərdir mənim ömrüm.

Zakir, sevin, axır bu yaşa gəldin,
Həyatda hər zaman yerini bildin.
Ürəkdən ağladın, ürəkdən güldün,
Çətinliyə sinə gərdi mənim ömrüm,
Yazan olsa, bir əsərdir mənim ömrüm.

## AYRILIQ

Qəm-qüssə qəlbimi didib parçalar,
Gözümün önünü qaranlıq alar.
Atılar üstümə, ilantək çalar,
Cəllad kimi canı alar ayrılıq,
Məni səndən ayrı salar ayrılıq.

Vaxt çatar Əzrayıl aparar məni,
Dostların əlindən qoparar məni.
Bir daha yanında görməz yar məni,
Əlini boynuma dolar ayrılıq,
Məni səndən ayrı salar ayrılıq.

Dünyada həmişə mərdtək yaşadım,
Hər yerdə fəxrlə çəkilir adım.
Vurdu xain ovçu, sındı qanadım,
Yaramın üstünü yalar ayrılıq,
Məni səndən ayrı salar ayrılıq.

Qaralır gözlərim, hərlənir başım,
Yığılıb başıma qohum-qardaşım.
Yolur saçlarını ömür yoldaşım,
Rəhm elə bir mənə, nolar, ayrılıq,
Məni səndən ayrı salar ayrılıq.

Zakir də, dünyanın çəkdi cəfasın,
Görmədi bir gün də onun səfasın.
Allah, apar onu, dəyiş dünyasın,
Çünki verib belə qərar ayrılıq,
Məni səndən ayrı salar ayrılıq.

## XƏYALLARIM

Mən qucağına alar,
Ötənləri xatırladar.
Sabahıma körpü salar
Dünənimdən xəyallarım,
Gerçəkləşən xəyallarım.

Qəlbimdəki saf arzular
Daim ondan ilham alar.
Hər günümdə izi qalar,
Gülərüz, şən xəyallarım,
Gerçəkləşən xəyallarım.

Mənlə yatar, mənlə durar,
Beynimdə yüz plan qurar.
Başımı da bəzən yorar
Köksü eşən xəyallarım,
Gerçəkləşən xəyallarım.

Gah şirindir, gah acıdır,
İnsan onun möhtacıdır.
Xəstə qəlbin əlacıdır
Ömrümə tən xəyallarım,
Gerçəkləşən xəyallarım.

Mən onunla səfərdəyəm,
Hər kənddə, hər şəhərdəyəm
Quş qanadlı kəhərdəyəm
Göydə ötən xəyallarım,
Gerçəkləşən xəyallrım.

O, Zakirə qardaş olub,
Hər məclisində baş olub.
Ömür boyu sirdaş olub
Çiçələyən xəyallarım,
Gerçəkləşən xəyallrım.

## ŞAİR ÖMRÜ

Dünyada həmişə şeir və sənət
İnsana sayılıb mənəvi sərvət.
Şairlər sənətdə tapıblar şöhrət,
Həm incə, həm şənsən, a şair ömrü,
Heç qəm görməyəsən, a şair ömrü.

Sən həyatdan, gözəllikdən zövq aldın,
Vətənə, torpağa meylini saldın.
Xalqdan ilham aldın, qeydinə qaldın,
Həm incə, həm şənsən, a şair ömrü,
Heç qəm görməyəsən, a şair ömrü.

Vətən torpağını bildin sən cənnət,
Sənə nəfəs verdi ölməz məhəbbət.
Güldü xoş üzündə insaf, mərhəmət.
Həm incə, həm şənsən, a şair ömrü,
Heç qəm görməyəsən, a şair ömrü.

Səndən uzaq düşdü böhtan və yalan,
Qəlbinə heç zaman girmədi şeytan.
Həyatda heç kəsə vurmadın ziyan,
Həm incə, həm şənsən, a şair ömrü,
Heç qəm görməyəsən, a şair ömrü.

Qürbət eldə "Vətən" deyib ağladın,
Bu sevgini ürəyində saxladın.
Dar gündə xalqına sən bel bağladın,
Həm incə, həm şənsən, a şair ömrü,
Heç qəm görməyəsən, a şair ömrü.

Çəkdin söz mülkünə zərli naxışı,
Hər gözəl bənzətmən üzüyün qaşı.
Haqsız olanlarla etdin savaşı,
Həm incə, həm şənsən, a şair ömrü,
Heç qəm görməyəsən, a şair ömrü.

Çox qoca görünür Zakir yaşından.
Çıxıb o, zamanın qarlı qışından,
Daim qürur duyur el alqışından,
Həm incə, həm şənsən, a şair ömrü,
Heç qəm görməyəsən, a şair ömrü.

## YALAN SÖZ HAQQINDA
*(Məqalət)*

Yalan söz haqqında deyib atalar:
"Yalançı insanda olmaz abır-ar".

Ağızdan çıxdı söz, səninki deyil,
Pis söz rüsvay edər sahibini bil"

Yalan söz insanı salar hörmətdən,
Bir xeyir görməzsən yalan söhbətdən.

Yalan deyən insan tez düşər gözdən,
Yalan danışanlar tanınar üzdən.

Kişi yalan deyib özünü öyməz,
Yalan sözün mini qəpiyə dəyməz.

Bir bax, yalan səni nə günə salıb,
Millətin inamı sənə azalıb.

Yalan çoxaldıqca sənin sözündə,
Tamam düşəcəksən elin gözündən.

Yalan böyüdükcə, insan kiçilir
Onsuz da doğrudan yalan seçilir,

Ağzına gələni danışma, igid,
Çalış doğru danış, doğru da eşit.

Yalan söyləyərək günaha batma,
Yalan vədlər verib xalqı aldatma.

Yalanın çəkisi, ölçüsü olmaz,
Yalan söyləyənə etibar qalmaz.

Bircə kəlmə yalan gəlsə dilinə.
Ardı öz-özünə gələcək yenə.

Yalanı özündən gəl elə kənar,
Anla ki, həyatda düzgün yol da var.

Düz yolla yetişsən mənzil başına,
Xeyirli əməllər çıxar qarşına.

Heç vaxt əyilməzsən polad kimi sən,
Alqışlar söyləyər eşidən, bilən.

Elə söz söylə ki, düşsün kitaba,
Oxuyub insanlar desin mərhəba.

Elə söz söylə ki, qalsın yadigar,
Sözün də qızıltək çox qiyməti var.

Yalanın sərhədi yoxdur dünyada,
O, çox igidləri veribdir bada.

Ağızda gizlənən həmin acı dil,
Sahibin başına gətirəcək kül.

Yalanı gəl tərgit, ey qafil insan,
Bir də sən dilinə gətirmə yalan.

Aldadıb çoxunu dalınca gülmə,
Yalan danışmağı heç hünər bilmə.

İnsanın dəyəri sözünə baxır,
Alır qiymətini o, əvvəl-axır.

## YALANÇI VƏ ƏZRAYIL
*(Əhvalat)*

Deyirlər, vardı bir mahir yalançı,
Düz deyəndə onu tutardı sancı.

Böyük ustalıqla yalan deyərdi,
Düzü bilə-bilə tutub əyərdi.

Toplayıb başına bir neçə nadan,
Yalan danışaraq deyirdi inan.

Gürzətək vurmuşdu o şəxs çoxunu,
Yox idi həyatda dostu, yaxını.

Beləcə illəri yola saldı o,
Öz bəd əməlindən məmnun qaldı o.

Çəkdi millətinə bu şəxs göz dağı,
Çatdı Əzrayıla onun sorağı.

Əzrayıl haqladı onu bir gecə,
İsti yatağına girdi gizlicə.

Tutub boğazından o, bədniyyətin,
Dedi, qurtarasan əlimdən çətin.

Yalançı yalvardı-yaxardı xeyli,
Onun qabağında əyildi beli.

Dedi, xoş gəlibsən, Cənab Əzrayıl,
Gəl vermə sən mənə əzab, Əzrayıl.

Götür nə istəsən, qoy sənin olsun.
Qoyma cənnətimdə güllərim solsun.

Əzrayıl söylədi, yalan deməklə,
Həyatın boyunca günah yeməklə,

Özünü mömintək göstərmisən sən,
Bil ki, sən az aşın duzu deyilsən.

Sordun zəli kimi xalqın qanını,
Artırdın yalanla şöhrət-şanını.

Sərvət toplamaqla keçirdin günü,
Yalanla bəzədin bütün ömrünü.

Milləti sarıdın barmağına sən,
Onunçun həyata layiq deyilsən.

Dediyin yalanlar heç gəlməz saya,
Üst-üstə toplanıb olub bir taya.

Göstərmə özünü sən bir mələktək,
Allahın özünə gəlmisən kələk.

Şeytanı aldadıb ələ salmısan,
Nə əcəb, hələ də sən sağ qalmısan?

Gedib-gələn nəfəsin də, yalandır,
Danışdığın tamam yalan-palandır.

Doğru söz gəlməyib heç vaxt dilinə,
Yaxşıca düşmüsən indi əlimə.

Alaram canını bu gün mən sənin,
Hamıya xoş gələr bu qərar yəqin.

Yalançı ağlayıb, şivən qopardı,
Söylədi, sözümün axı var ardı.

Tikdirib qoymuşam uca saraylar,
Min illər bəs edər topladığım var.

Nə olar, möhlət ver mənə bir il də,
Hələ çox arzular var bu könüldə.

Əzrayıl tez dedi: bəsdir ağladın,
Xəstə ürəkləri sən çox dağladın.

Bircə an da sənə vaxt vermək olmaz,
Zülm və nahaq qan bil yerdə qalmaz.

İnan ki, tezliklə çatsan cəzana,
Bu yaxşı dərs olar yolun azana.

Belə deyirlər ki, ağaranda dan,
Öldü,  o yalançı, qurtardı yalan.

Yalan danışmağı apardı onu,
Beləcə yetişdi ömrünün sonu.

## UZAQ OLAQ BİZ

Tanrı gətirəndə dünyaya bizi,
Saf, təmiz yaratdı ürəyimizi.
Gül- çiçək bəzəsin diləyimizi,
Zərərli vərdişdən uzaq olaq biz.
Yararsız hər işdən uzaq olaq biz.

Bəzən qəlbə girər şeytani hisslər,
Şeytan da insana min kələk gələr.
Tövbələr eləyib hər axşam-səhər
Zərərli vərdişdən uzaq olaq biz.
Yararsız hər işdən uzaq olaq biz.

Su tökməklə quyu sulu olarmı,
İnsan öz nəfsinin qulu olarmı?
Haram pul yığmaqla pulu olarmı?
Zərərli vərdişdən uzaq olaq biz.
Yararsız hər işdən uzaq olaq biz.

Biz əziz qonağıq qoca dünyada,
Qəlbə kin yükləyib həddən ziyada
Gəlin qısa ömrü verməyək bada
Zərərli vərdişdən uzaq olaq biz.
Yararsız hər işdən uzaq olaq biz.

Şadlıqdan, fərəhdən biz eynək taxaq,
Dünyanın üzünə sevinclə baxaq.
Nə lazım su kimi hər yana axaq,
Zərərli vərdişdən uzaq olaq biz.
Yararsız hər işdən uzaq olaq biz.

Paxıllıq dönübdür böyük bəlaya,
Çoxunu salıbdır nahaq davaya.
Kini, küdurəti ataq havaya,
Zərərli vərdişdən uzaq olaq biz.
Yararsız hər işdən uzaq olaq biz.

Gəlin gəlbimizi saxlayaq dincə,
Ona məlhəm olsun sağlam düşüncə.
Bununçun çalışaq, hər şeydən öncə
Zərərli vərdişdən uzaq olaq biz.
Yararsız hər işdən uzaq olaq biz.

Zakir, çox gözəldir, inan bu dünya,
Saf ömür bənzəyir busata-toya.
Çalışaq şad günlər gəlməsin saya
Zərərli vərdişdən uzaq olaq biz.
Yararsız hər işdən uzaq olaq biz.

## DÜNYANIN HARAYI

Yaradılır yeni ağır silahlar,
İşlədilir hər tərəfdə günahlar.
Göylərə ucalır nalələr, ahlar,
Niyə Allah eşitməyir harayı?!

Sülhü qorumağa yerdə and içib,
Hərbi bazaları göylərə keçib.
İnsanlar şeytanı yenə dost seçib
Niyə Allah eşitməyir harayı?!

Çilidə Osorna vulkanı yanır,
Yandırıb kül edib alov dörd yanı.
Didərgin eləyib xeyli insanı,
Niyə Allah eşitməyir harayı?!

Hindistanda, Pakistanda istilər,
Olub insanlara böyük dərdisər.
Əzab çəkir bu bəladan kənd-şəhər
Niyə Allah eşitməyir harayı?!

Bir yanda əriyir qalın buzlaqlar,
Bir yanda at çapır tufan, külək, qar.
Zəlzələ, yeraltı süni təkanlar
Niyə Allah eşitməyir harayı?!

Təbiət anadır, qoruyaq onu,
Vaxtında dəyişsin fəsillər donu.
Qorxuram pis olar dünyanın sonu,
Niyə Allah eşitməyir harayı?!

## NURGÜN QIZIM

*(Nəvəmə ithaf edirəm)*

Sən bir parlaq günəşsən,
Qəlbdə sönməz atəşsən,
Ağıl-kamalda "Beş" sən.
Gəl, mənim Nurgün qızım,
Sənsən diləyim, arzum.

Sən atanın gülüsən,
Ürəyinin telisən.
Baldan şirin dilisən.
Gəl, mənim Nurgün qızım,
Şerim, mahnım, avazım.

Günlərin nurlu olsun,
Qəlbin fərəhlə dolsun.
El səndən razı qalsın,
Gəl, mənim Nurgün qızım,
Nurlu ayım, ulduzum.

Böyüyüb, boy atasan,
Hər arzuna çatasan,
Ömrə sevinc qatasan,
Gəl, mənim Nurgün qızım,
Güllü baharım, yazım.

Gözəllikdə tayın yox,
Kirpiklərin sanki ox.
Baban səni sevir çox,
Gəl, mənim Nurgün qızım,
Ürəyim, canım, gözüm.

*2013*

## İLK ADDIM

Bu gün körpə atdı ilk addımını,
O dəm hiss elədi onun dadını.
Çaşsa da o, ayaq üstə dayandı,
Elə bir yatmışdı, birdən oyandı.
Özünü saxlayıb o ayq üstə
Dözdü  çətinliyə bu boyu bəstə.
Qorxa-qorxa o, ilk addım atdı,
Sanki istədiyi  arzuya çatdı.
Bir az da gedərək yıxıldı birdən.
Qoymadiq ağlasın, qaldırdıq  yerdən.
Nə qədər sevindi bütün ailə.
Uşağın başnda çəkib dairə
Hamı qucaqlayıb öpərək onu,
Dedilər: -Tez böyü, edək toyunu.
Qoy uğurlu olsun bu ilk addımın.
Kimsədən olmasın heç bir yardımın.
Addımla, a bala, çox uzaqlara,
Hər addmın xeyir versin diyara.
Atılan  addımlar böyüklərin də
Gərək saxlanılsın tam nəzərində.
Ağılsız addımlar heç atmayaq biz,
Sonradan çıxmasın üzə səhvimiz.
Dostum, əyri addım həyatda atma,
Halalı harama heç vədə qatma.
Düz atsan addımı ömrün uzunu,
Qazanarsan uğurların yüzünü
Pis addımı adam eləsə peşə,
İşləri müşkilə düşər həmişə.
Nüfuzun, hörmətin tamam itirər,
Addım sahibinə zərər gətirər.
Gəlin hər addımı, nolar, düz ataq,

İstənilən arzu, niyyətə çataq.
Addım var atmamış əvvəlcə onun
Hesaba çəkəsən xeyrın, ziyanın.
Addım var ki, onu heç atmaq olmaz,
İstəyə,  məqsədə heç çatmaq olmaz.
Çünki el içində qazanar nifrət,
Ondan uzaq qaçar inam və hörmət.
Yol göstərsə bizə daim ayıq baş,
Bu işdə olmaz bil heş zaman savaş.
Nəfsi cilovlayıb addım ataq biz,
Qılınc tək olmasın tamah dişimiz.
Atılan bir addım hər gün, hər səhər
Verməsin kimsəyə kədər və zərər.
Böyüyün, kiçiyin yerin bilək biz,
Qocaya, ahıla olsun sevgimiz.
Bil, yaddan çıxarsa, ata və ana
Düşəcəkdir yoxsa daim ziyana.
Əgər beşiyinsə bu el, bu oba,
Demək dayağındır qohum-əqrəba.
Hərdən ustadını gəl sən yada sal,
Keyfini soruşub, qayğısına qal.
Öz eybini görən çox uzaq görər,
Ağıl ağacından hər gün bar dərər.
Nadanlıq pərdəsin atsa üzündən,
Comərdlik  yağacaq üzü-gözündən.
Atıb  pis əməli qorxusuz yaşa,
Beləcə  ömrünü yaşa, vur başa.
Lüğətdən silək biz kini, nifrəti,
Hamıdan qazanaq xətir-hörməti.
Daim fayda görsün səndən cəmiyyət,
Ürəklərə dolsun sevgi, məhəbbət.
Tanrı xeyir versin hər ilk addıma,
Səadət bəxş etsin hər bir adama.

Hər yerdə sevinclə deyək, gülək biz,
Kədəri ömürdən tamam silək biz.
Açsın Vətən mülkü hər il gül-şişək,
Zakir, bizim olsun xöşbəxt gələcək!

## BÖYRƏK

İfrazat orqanı sayılır böyrək,
Həmişə ürəyə eləyir kömək.

Paxlaya bənzəyən bu vacib orqan,
Yararsız olarsa, məhv olar insan.

Qarın boşluğunda  ikidir sayı,
Biri sağdadırsa, soldadır tayı.

Qırmızı-qonur rəngdədir böyrək,
Böyrək sağlamdırsa, sağlamsan demək.

Zəhərli maddələr, müxtəlif duzlar,
Cövhər, turşu, su və artıq nə var

Daim böyrəklərlə kənar edilir,
Bu iş həyat boyu təkrar edilir.

Yüz iyirmi qramdır çəkisi onun,
Böyrək çatışmasa, yetişər sonun.

Böyrəyin qapısı adlanan yer var,
Arteriya, sinir orda yer alar.

İnan qıfabənzər böyrək ləyəni
Heyrətə gətirər hər bir görəni.

Böyrəyin qabıq və beyin maddəsi
Təəccübləndirə bilər görən hər kəsi.

Burda bir milyona qədər neyron var,
Saysızdır məməcik və kasacıqlar.

Mürəkkəb funksiya daşıyır böyrək,
Hamı tərəfindən qorunsun gərək.

Tək bir böyrək ilə yaşamaq çətin,
Bununçun gərək sən olasan mətin.

Həkimsiz  bir addım ata bilməzsən,
Həkimsiz arzuna çata bilməzsən.

Gərək gözləyəsən qayda qanunu,
Yoxsa yetişəcək bil ömrün sonu.

Xəstə böyrək dərddir ömür uzunu,
Gərək qoruyasan hər vaxt özünü.

Son zamanlar bu xəstəlik dünyada,
Artaraq çoxalıb həddən ziyada.

Vaxtında soyuqdan qorusan onu,
Saxlam olacaqsan unutma bunu.

Böyrəklə bağılıdır çox xəstəliklər,
Səhlənkarlıq etsən, artar dərdi-sər.

Angena, tanzilet, boğaz ağrısı,
Nəfəs yolları, ağ ciyər, daha doğrusu

Qorxulu bəladır böyrəkdə daşlar,
Xəstəliyin kökü soyuqdan başlar.

Üstünə düşərək çəksən əziyyət,
Sağalıb durarsan yataqdan əlbət.

Unutma hər dərdin öz dərmanı var,
Bu gözəl məsəli deyib atalar.

Üstünə düşməsən vaxtında əgər,
Qanına keçəcək son anda zəhər.

Sağlamlıq qədrini bilməyən insan
Xoşbəxt ola bilməz həyatda inan.

Sağlam həyat tərzi olsa yoldaşın,
Atarsan biryolluq xəstəlik daşın.

İdman, pəhriz, həkim müalicəsi...
Olsa xoş olacaq son nəticəsi.

Hər il öz vaxtında həkimə getsən,
Həkimin sözünə düz əməl etsən,

İnan ki, heç zaman ağrımaz başın,
Canın sağlam olar, axmaz göz yaşın.

Qorxu-həyacanı bir kənara at,
Qoy gülsün üzünə həmişə həyat.

Özünə qapanıb "ölürəm" demə,
Çalış düşməyəsən kədərə, qəmə.

Başını dik saxla sərv ağacıtək,
Yalnız Allahından istə sən kömək.

" Xəstəyəm" söyləyib belini əymə,
Hahaq ah-vay salıb dizinə döymə.

Bağla ümidini qadir Allaha,
Ölüm barəsində düşünmə daha.

Sənə yoldaş olsa ümidlə inam,
Onda alacaqsan həyatdan ilham.

Məhəbbət qalıbsa ürəkdə əgər,
Hələ yaşamağa, deməli, dəyər.

Gəlin sağlam olaq ömür boyunca,
Sevilək doyunca, sevək doyunca.

Qoy açsın Şabranda həyat gül-çiçək,
Bizim üzümüzə gülsün Gələcək.

Yox olsun xalqımın qəmi-kədəri,
Hər gün gülər üzlə açaq səhəri.

Çünki yer üzünün əşrəfi insan,
Layiqdir yaşasın sağlam, firavan.

## UZUN ÖMRÜN SİRRİ

Dağların qoynunda bir oba vardı,
Orada bir qoca kişi yaşardı.

Yüzü çoxdan ötüb keçmişdi yaşı,
Kənddə qalmamışdı tayı, yoldaşı.

Piyada hər yanı  dolaşan insan,
Yoruldum deməzdi inan heç zaman.

Gördüyü işlərdən ləzzət alardı,
Allah verdiyindən razı qalardı.

Zəhmətlə dost idi bu qoca kişi,
Çöldə, bayırdaydı il boyu işi.

Dağların saf suyu, sərin havası,
Olmuşdu qocanın dərman, davası.

Hər işi bu qoca  özü görürdü,
Hər gün sağlam həyat tərzi sürürdü.

Hər yanda qocadan düşürdü söhbət,
Dedilər, qocada sirr vardır əlbət.

Görüşüb onunla tanış olaq biz,
Sirrini öyrənib məmnun qalaq biz.

Çox çətin bir işdir bu yaşa çatmaq,
Çalışmaq, işləmək qurub-yaratmaq.

Alimlər, rəssamlar, mütəxəssislər,
İşbazlar, bədxərclər, həm də xəsislər.

Yığıb gətirdilər çox adamları,
Həmi ac, həmi də tox adamları.

Jurnalistlər, pisixoloqlar, həkimlər,
Yazıçılar, müəllimlər və kimlər...

Yollandılar o qocanın yanına-
Uzunömürlü şəxsin ünvanına.

Qoca qarşıladı hamın xoş üzlə,
Ürəkləri açan söhbətlə, sözlə.

Dedi: Xoş gəlmisiz bu məkana siz,
Dolsun sevinclərlə daim qəlbiniz.

Mənim ev-eşiyim qurbandır sizə,
Bütün kənd sevinir gəlişinizə.

Razılıq elədi hamı qocadan,
Təşəkkür etdilər ona ucadan.

Dedilər, biz bir günlüyə gəlmişik,
Səni özümüzə böyük bilmişik.

Suallar yağdırdı hamı qocaya,
Üzü bənzəyirdi sanki bir aya.

-Baxın, yaşınızdan çox-çox cavansız,
Zaman olmayıbmış sizə amansız.

- Keçib həyatınız öz axarıyla,
Qışı, yazı, yayı, son baharıyla.

-Çətinlik çəkməyib başın həyatda,
Ömür keçib yəqin, toyda-busatda.

Belə deyirlər ki, həyat yoldaşın,
Yaxşı qulluq edib, olub sirdaşın.

-Övladların, nəvələrin heç zaman,
Uzağa getməmiş yəqin, yanından.

-Gündəlik yediyin təbii qida,
Kömək eləyibmiş, çatıbmış dada.

-Çox güman ki, sən düz yerdə yatmısan,
Ona görə bu yaşa gəlib çatmısan.

- Babacan, gəl sən bu sirri aç bizə,
Şadlıq, seninc gətir ürəyimizə.

Dinləyib onları səbrlə qoca,
Söylədi: Yüz yaşa ayıq qoyunca

Bəd əməldən daim uzaq dayandım,
Günəşlə bir yatıb, bir də oyandım.

Yol yoldaşım oldu səbr və dözüm,
Özgə tikəsinə baxmadı gözüm.

Aza qane oldum ömür boyu mən,
Nəfsin cilovunu vermədim əldən.

Acmamış yeməyə tələsmədim mən,
Əlimi doymamış  çəkdim süfrədən.

Ömrə balta çalar həyacan, qorxu,
Gedib bu səbəbdən dünyadan çoxu.

Əgər düşünmədən riskə getsən sən,
Dostum, çox uzağa gedə bilməzsən.

Mənimlə dost oldu özünəinam,
Heç vaxt yol vermədi çətində qalam.

Mənlə birgə yatıb-durdu arzular,
Arzusuz həyatın nə mənası var.

Şərəfi, vicdanı uca tutdum mən,
Peşiman olmadım öz əməlimdən.

Bildim mən sözümün yerin hər zaman,
Dilimin ucundan çəkmədim ziyan.

Ümidimi tək Allaha bağladım,
Olanımı sabaha da saxladım".

Diqqətlə  dinlədi qocanı hamı,
Birə-beş qat artdı ona inamı.

Bildilər, sözündə zərrə yox yalan,
Müdrik ağsaqqalmış bu qoca insan.

Uzun ömrün sirri öyrənildi tam,
Bu yerdə sözümüz qurtardı tamam.

Allah özü bilir ömrün qədərin,
Xoş günün, sevincin, qəmin, kədərin.

## BU DÜNYAYA BİZ GƏLDİK Kİ ...

Bu dünyaya biz gəldik ki,
Vətən mülkü açsın çiçək.
Xoş niyyətlə, xoç əməllə
Ana yurda vuraq bəzək.

Bu dünyaya biz gəldik ki,
Dünya daha gözəl olsun.
Gəlmədik ki, açan güllər
Qönçə ikən küsüb solsun.

Bu dünyaya biz gəldik ki,
Can deyək hey, can eşidək.
Gəlmədik ki, hirsli başla
Bir-birinə təhqir deyək.

Bu dünyaya biz gəldik ki,
Böyük, kiçik qədrin bilək.
Gəlmədik ki, yalan deyib,
Başqasına kələk gələk.

Bu dünyaya biz gəldik ki,
Dünyada yaxşı ad qoyaq.
Gəlmədik ki, kin-qəzəblə
Qəlbi sökək,bərbad qoyaq.

Bu dünyaya biz gəldik ki,
Uzaq olsun bizdən tamah.
Gəlmədik ki, acgözlüyün
Qulu olub, edək günah.

Bu dünyaya biz gəldik ki,
İnsanlara olaq dayaq.
Gəlmədik ki, əlimizlə
Özgəsinə quyu qazaq.

Bu dünyaya biz gəldik ki,
Məhəbbəti yaşadaq biz.
Qəlbimizlə, gözümüzlə
Eşqi bilək candan əziz.

Bu dünyaya biz gəldik ki,
Xoş sözlərdən çələng hörək.
Gecə gündüz öz ritmiylə
Sinəmizdə vursun ürək.

Zakir, ömür bir tapmaca,
Köçüb gedir cavan, qoca.
Dünyaya ömür boyunca
Kam almağa gəlmişik biz,
İz qoymağa gəlmişik biz.

## QOCALIQDA PEŞMAN OLMAYAQ

Cavanlıqda peşə sənət öyrənək,
Bilik olsun bizə dar gündə gərək.
Ömrə vuraq bacarıqla min bəzək
Sonra qocalıqda peşman olmayaq.

Yalan danışmağa etməyək adət,
Dil çaşıb etməsin bizə xəyanət.
Yoxsa bizdən qaçar ruzi-bərəkət.
Gəlin qocalıqda peşman olmayaq.

Ürəkdə Vətənə olsa məhəbbət,
Tapaq özümüzdə hər vaxt cəsarət
Gətirər həmişə ömrə səadət.
Sonra qocalıqda peşman olmayaq.

Gücümüzü gözəl işə sərf edək,
Tanrının qoyduğu düz yolla gedək.
Bütün qocaların qədrini bilək
Sonra qocalıqda peşman olmayaq.

Pis işdə qol gücü sınamayaq biz,
Dürdən, cavahirdən olsun kəlməmiz.
Olsun vicdanımız sudan da təmiz,
Sonra qocalıqda peşman olmayaq.

Gedir dayanmadan ömür karvanı,
Bu söz damarlarda dondurur qanı.
Zakir, gəl ürəkdən sevək insanı
Sonra qocalıqda peşman olmayaq.

## GÜNƏŞ VƏ YAXUD PLANETLƏRİN ŞAHI

Qalaktikada milyon ulduz parlar,
Günəşdən min dəfə kiçikdir onlar.

Yerə ən yaxını Günəşin özü,
Bu ulduz sayılır aləmin gözü.

Beş milyon ildir ki, qoca dünyada,
Mürəkkəb, möhtəşəm, uca dünyada,

Əbədi məşəltək hey yanır günəş.
Göyün mərkəzində dayanır günəş.

Fırladır bütün göy cisimlərini,
Kosmik elmə bəli isimlərini.

Sanki bir dost kimi tutub əllərdən
Həzz alır gördüyü xoş əməllərdən...

Vardır hərəkətdə  doqquz  planet,
Onlardan əlavə metlor, peyk, komet.

Günəş sistemini yaradıb onlar,
Günəşlə onların əlaqəsi var.

Planetlər Günəşlə birgə fırlanır,
Günəş də özünü bir Ana sanır.

Günəşlə dövr edir göy cisimləri,
Hərənin səmada vardır öz yeri.

Fiziki xassəsinə görə Merkuri,
Venera, Mars və bizim Yeri,

Daxili planetlər adlandırıblar,
Çünki dördünün də yaxınlığı var.

Saturn,Yupiter, Neptun və Uran,
Xarici planet adlanır çoxdan.

Görkəmli Kopernik, Nyuton və Karler,
Tutmuşlar elmdə çox şərəfli yer.

Qaliley də teleskopu kəşf etdi,
Elm bu sahədə irəli getdi.

Astofizika adlı elm yarandı,
Çox alim burada uğur qazandı...

Məndən soruşsanız nədir bu Günəş?
Nədir içindəki bu sönməz atəş?

Deyərdim, dünyanın bəzəyidir o!
Bütün kainatın özəyidir o!

Günəşsiz bir canlı yaşaya bilməz,
İnsanın siması heç zaman gülməz.

İsti şüaları yerə gəlməsə,
Səhər açılanda üzə gülməsə,

Soyuq, şaxta o dəm dondurar qanı,
Alar yubanmadan Əzrayıl canı.

Günəş yer üzünün qızıl tacıdır,
Varlığın birinci ehtiyacıdır.

Bütün yerin-göyün anasıdır o,
Dünyanın bir sirli aynasıdır o.

# TAMAHKARIN AQİBƏTİ

1

Deyirlər ölçüsü yoxdur tamahın,
Cəzası böyükdür belə günahın.

Minlərlə insana o vurub yara,
Çoxların çəkdirib boğazdan dara.

Onun ucbatından çox igid ərin,
Alim, məmur, cəsur sərkərdələrin

Başına müsibət gəlib dünyada,
Şirin həyatları gedibdir bada.

Cox dərdlər mənbəyin alıb tamahdan,
İnsaf sanki yaddan çıxıb o vaxtdan.

2

Qədim vaxtlarda bir qatı tamahkar
Çirkin əməliylə olub günahkar.

Mənəvi hisslərdən uzaq düşüb o,
Elə bu səbəbdən bimar düşüb o.

Allahı çıxarıb tamam yadından,
Qoxmayıb Cəhənnəm od-alovundan.

Qanın zəhərlədi bu mənfi vərdiş.
Xəstə düşüncədə olmadı dönüş.

Hər gün itilədi tamah dişini,
Tez -tez təkrar etdi o, vərdişini.

Çalaraq, çaparaq hey gec-gündüz,
Doymaq bilmədi heç bu idbar, iblis.

Mal-dövləti, cah-cəlalı sevirdi,
Qohum- əqrəbaya arxa çevirdi.

Yığdıqca qızılı artdı tamahı,
Bir gün tutdu onu yetimin ahı.

Tamahla qardaşdır səksəkə, qorxu,
Qorxudan dəyişib dünyasın çoxu.

Yığsa da pulları o, kisə-kisə,
Əlin uzatmadı heç vaxt bir kəsə.

Yalandan yoğurdu sözü-söhbəti,
Qazandı həyatda saysız nifrəti.

Aldanıb varına, aşdı həddini,
Xəstəlik günbəgün əydi qəddini.

Hamı zərər gördü onun əlindən,
Kor oldu gözləri acgözlüyündən.

Uyaraq yığdığı cah-calalına,
Baxdı xəyanətlə kasıb malına.

Qonşunun yolunu kəsib daraltdı,
Günahsız aılənin qanın qaraltdı.

Nəfsinə qul olub ömür yaşadı,
Pisliyə çəkildi həmişə adı.

Gözünü kor etdi onun pul-para,
Özü də bilmədi gedir o hara?

İncidərkən özündən çox zəifi,
Onun durulurdu həmişə kefi.

Tamahdan törənən heç bir hadisə
Xeyir gətiməmiş hələ heç kəsə.

Sərvətin əlindən çıxmaq qorxusu,
Narahat eləyir çoxun, doğrusu.

Fikirlə yaşayan gecə-gündüzü
Səhv salar, vaxtında yatmaz o, düzü.

Bu adam inanmaz inan heç kimə,
Nə cür xəstələnsə, getməz həkimə.

Yoxlayar yerini hər gün sərvətin,
Hamıdan gizlədər varın-dövlətin.

3

Cənab Əzrayıla iş yetişən vaxt,
O, elə bildi ki, gətirməyib baxt.

Heç kim yetişmədi onun hayına,
Qohumlar oturdu onun vayına.

Heç kim eşitmədi məzlum səsini,
Qorxudan  çəkmədi o, nəfəsini.

Əzrayıl gördü ki, bu nadan qorxaq,
Demə, adamları sayırmış axmaq.

İstəyir bəraət alsın özünə.
Tülkü maskasını taxıb üzünə,

“Kəs səsini, alçaq-dedi Əzrayıl,
- Sənin dediklərin düz deyil, xeyr!

Almısan çoxunun varın əlindən,
Heç vaxt utanmadın bəd əməlindən.

Deyirdin, mən yeyim, qarnım tox olsun,
Qalanlar ac qalsın, ölüb yox olsun.

Bu yazıq ömrünü verərək bada,
Pis adla yaşadın sən bu dünyada.

İnsafı, mürvəti verdin əlindən,
Millət zara gəldi bəd əməlindən.

Yadında saxla ki, qızıl yığanlar,
Dünyada özünü “xoşbəxt” sananlar

Əslində bədbəxtdir, yaxşı düşünsən,
Dünyadan sonrakı günü düşün sən.

Tərk edər dünyanı sənintək nadan ,
Öləndə boş əllə gedər dünyadan.

Soyunub paltarı, geyinər kəfən,
Beş arşın bez ilə köçər dünyadan.

Bilin, agah olun, heç vaxt az tamah,
İnsana olmayıb həyatda günah.

Tamahın başına bir bəla oldu,
Ölüm xofu səni cənginə aldı.

Ölmünə fərmanı yazdın əlinlə,
Özünə quyunu qazdın əlinlə”.

Əzrayıl durmayıb aldı canını,
Döndərdi damarda buza qanını.

4

Tamahın az olsa hörmətin artar,
Əməlin həmişə qəlblərə yatar.

Tamahın az olsa, qənaətin çox,
Nəfsini saxlasan, gözün olar tox.

Nəfsi pələng kimi sal bir qəfəsə,
Çalış pislik etmə tamam heç kəsə.

Pislik eləməklə  bir çox adama,
Etiyacdan artıq sərvət toplama.

Sərvətin artığı haramdır, haram,
Onun xeyri olmaz sənə bir qram.

Özündə taparaq qüvvə, cəsarət,
Sən öz xərclərinə elə qənaət.

Çatarsan bu yolla hər arzuna sən,
Bu işdən həyatda xeyir görərsən.

Yaşarsan həyatda azad quş kimi,
Gəzməzsən heç zaman loğman, həkimi.

Toplasan sərvəti haram yolla sən,
İnan ki, sən ondan fayda görməzsən.

Əcəl yetişəndə o pullar sənə,
Kömək etməyəcək, bunu bilsənə.

5

Buraxsan tamahın cilovun əldən,
Söz-söhbət yığışmaz obadan, eldən.

Yayılar hər yana haqqında söhbət,
Tanıyar hər adam səni, nəhayət.

Əgər çəkəcəksən tamah nazını,
Tikmək olmayacaq elin ağzını.

El içində rüsvay olan zaman sən,
Gərək daha gözə görünməyəsən.

Tamahla olsa da çox arzular cin,
Qazancın olacaq nifrət ilə kin.

Əqillə, kamalla hərəkət etsən,
Tanrının qoyduğu yol ilə getsən,

İşıqlı olacaq qarşında yollar,
Gərək olmayacaq yığdığın pullar.

Dost bilmə Şeytanı heç vaxt özünə,
Külü bilə-bilə tökmə gözünə.

Kimin ki, puldadır gücü-qüvvəti,
Dost edir özünə o, xəyanəti.

Səni nümunətək qoy salaq yada,
Sənintək acgözlər çoxdur dünyada.

6

Ey insan, gəl sözü qoyaq bir yerə,
Versin tövhəsini qoy haqqa hərə.

Tamah zəncirini gəlin qıraq biz,
Ritmlə döyünsün daim qəlbimiz.

İnsafı, mürvəti əldən verməyək,
Acgöz tamahkara gəl lənət deyək!

# YAŞAMAQ İSTƏRƏM

Kim deyər ki, eşqdən güclü nəsə var,
İnsan məhəbbətsiz gül kimi solar.
Hələ qulluğumda durub nazlı yar
Yarın tellərini oxşayıram mən.
Xoşbəxt günlərimi yaşayıram mən.

Ömür boyu məhəbbətdən güc aldım,
Vətənimə sədaqətdən güc aldım,
Pak arzudan, saf niyyətdən güc aldım,
Ürəkdə sevgini daşıyıram mən.
Xoşbəxt günlərimi yaşayıram mən.

Bir görün qarşıdan nə günlər gəlir,
Görüb yüksəlişi ruhum dincəlir.
İnkişaf düşmənin bağrını dəlir.
Bu xoşbəxt günləri yaşayam gərək.

Qurulubdur hər tərəfdə toy-busat,
Sevincdən açırıq biz də qol-qanad.
Gündən-günə gözəlləşir bu həyat,
Azərbaycanlı adın daşıyıram mən
Bu xoşbəxt günləri yaşayıram mən.

Baxdıqca parklara, bağçaya, bağa,
Ürək fərəhindən dönür bir dağa.
Belə şən günlərin misli yox daha
Vətənə məhəbbət aşılayıram mən.
Bu xoşbəxt günləri yaşayıram mən.

Şərəflə yaşadım, Zakir, dünyada,
Ömrümü heç zaman vermədim bada.
Əymədim başımı namərdə, yada,
Həyata yenidən başlayıram mən,
Bu xoşbəxt günləri yaşayıram mən.

## İLAHƏ
*(Nəvəmə ithaf edirəm)*

Baharımsan, yazımsan,
Çiçəklənən arzumsan.
Ən parlaq ulduzumsan
Göyçək nəvəm İlahə,
Çiçək nəvəm İlahə.

Nənəyə dür-incisən,
Babanın sevincisən.
Bilikdə birincisən
Zirək nəvəm İlahə,
Çiçək nəvəm İlahə.

Atana sən dayaqsan,
Anana çılçıraqsan.
Şər işlərdən uzaqsan,
Mələk nəvəm İlahə,
Çiçək nəvəm İlahə.

Dayının diləyisən,
Xalanın köməyisən.
Hamının gərəyisən,
İpək  nəvəm İlahə,
Çiçək nəvəm İlahə.

*2011*

## QALMAĞA TƏLƏS

Hər dəfə gələndə yurduma bahar,
Əriyir dağlarda qışdan qalan qar.
Qəm-qüssə könlümdə olur tar-mar,
Əgər tükənməyib ürəkdə həvəs,
Ölməyə tələsmə, qalmağa tələs.

Boş yerə ömrümü vurmadım başa,
Şükür, arzularım dəyməyib daşa.
Naxələf çıxmadım dosta, qardaşa
Daim qulağımda səslənir bu səs:
Ölməyə tələsmə, qalmağa tələs.

Xəstəlik qapımı tez-tez döysə də,
Ağrılar qəddimi tamam əysə də,
Hərdən yarım mənə qoca desə də,
Deyirəm mən ona: -Sən gətirmə nəhs
Ölməyə tələsmə, qalmağa tələs.

Dünyada yaşamaq çətindir çətin,
Gərək olmalısan səbirli, mətin.
Fəth  etdin zirvəsin sən səadətin,
Bundan sonra yolun hayanadır bəs?
Ölməyə tələsmə, qalmağa tələs.

Getmişəm Tanrının qoyduğu yolla,
Bu yolda heç kimdən qalmadım dala.
Həyatdan könlümcə zövq ala-ala,
Şükür, yaşayıram-alıram nəfəs,
Ölməyə tələsmə, qalmağa tələs.

Zakirəm, çox çəkdim dünya nazını,
Mən gördüm çoxunu, həm də azını.
Pozmaq olmaz Allah yazan yazını,
Bu müdrik kəlamdan sən də götür dərs,
Ölməyə tələsmə, qalmağa tələs.

**LƏMANIM**

*(Nəvəmə ithaf edirəm)*

Kirpiyin, gözün qara,
Saçların ipək, xara,
Nümunəsən qızlara,
Əzizim, mehribanım,
Mənim körpə Ləmanım.

Ananın ürəyisən,
Ömrünün bəzəyisən.
Ətirli çiçəyisən,
Böyü, boy at, fidanım,
Mənim körpə Ləmanım.

Gah sakit, gah dəcəlsən,
Şirindilsən, gözəlsən.
Sən hər şeydən əzəlsən,
Damarda axan qanım,
Mənim körpə Ləmanım.

Qanad açıb uçasan,
Zirvəyə yol açasan.
Aləmə nur saçasan,
Qoy fəxr etsin Şabranım,
Mənim körpə Ləmanım.

## BU DÜNYANIN

Kimə gendir, kiməsə dar.
Kimə düşmən, kiməsə yar,
Dəyişər donun qış, bahar,
Çoxdur üzü bu dünyanın.

Mərdi qovub namərd edər,
Qorxağı igid, mərd edər.
İstədiyi yolla gedər,
Kordur gözü bu dünyanın.

Varlıları tərifləyər,
Kasıbları hərifləyər.
Qocaldıqca xəlifləyər,
Bitər sözü bu dünyanın.

Zakir, omrü keçir sayıq,
Adın var özünə layiq.
Yaşa gecə-gündüz ayıq
Olma "qazı" bu dünyanın.

## SÖZ YERİNƏ DÜŞƏNDƏ

İlahidən güc alar,
Ürəyə sevinc dolar.
İnsan gözdə ucalar,
Ölməz, yadlarda qalar
Söz yerinə düşəndə.

Məhəbbəti artırar,
Qəm-qüssəni yatırar.
Kin-qəzəbi batırar,
Namərdin belin qırar
Söz yerinə düşəndə.

Məclisə söhbət qonar,
Söhbət xeyli uzanar.
Paxıl içində yanar,
Nadan xeyli utanar
Söz yerinə düşəndə.

Zakir söz de, söz olsun,
Doğru olsun, düz olsun.
Sözün  dillərdə qalsın.
Səni də yada salsın
Söz yerinə düşəndə.

## ÖTƏN GÜNLƏRİM

Nə yadımdan çıxır, nə unudulur,
İllər keçir, nə saralır, nə solur.
Mənim xatirəmdə əbədi qalır
Bir-birindən şirin ötən günlərim,
Gül kimi yaddaşda bitən günlərim.

Siz oldunuz ömrün böyük loğmanı,
Qəlbə şəfa verən iynə-dərmanı.
Allah özü verir bizə fərmanı,
Bir-birindən şirin ötən günlərim,
Məndən uzaqlaşıb gedən günlərim.

Keçsə də ömürdən aylar və illər,
Açıb çəmənimdə təzə-tər güllər,
Oxuyur bağçamda şeyda bülbüllər,
Bir-birindən şirin ötən günlərim,
Mənim köməyimə yetən günlərim.

Hər sözün,söhbətin canı sizsiniz,
Qəlbin hissi, həyacanı sizsiniz.
Həyatımın ən xoş anı sizsiniz,
Bir-birindən şirin ötən günlərim,
Mənim xəyalımda bitən günlərim.

Zakir, bu dünyaya heç etibar yox,
Həyatınsa kefdən dərdi-qəmi çox.
Keçirdim ömrümü könlü-gözü tox,
Bir-birindən şirin ötən günlərim,
Mənlə vidalaşıb itən günlərim.

## MƏN SƏNƏ GÜNƏŞ DEDİM Kİ...

Mən sənə günəş dedim ki,
Şəfəqlənsin, üzün gülsün.
Bir anatək hərarətin,
Körpə qəlblərə süzülsün.

Günəşlə oyanan məktəb,
Al nura boyanan məktəb.
Pərvanətək yanan məktəb
İsidərək ocağını,
Açdın bizə qucağını.

Yolu necə keçməyi də,
Tükü tükdən seçməyi də
Yüz ölçüb, bir biçməyi də,
Səbrlə öyrətdin bizə.
Hakim oldun qəlbimizə

Sən müdriksən, sən ulusan,
Sən cəsarət sinvolusan,
Haqq və ədalət yolusan.
Elmin beşiyi sənsən, sən,
Çəkən keşiyi sənsən, sən.

Nadanlıqdan hey qaçdın sən,
Həqiqətə yol açdın sən.
Gələcəyə nur saçdın sən,
Elin, obanın gözüsən,
Elm-təhsil mərkəzisən.

Sən elə bir günəşsən ki,
Hey qovursan qaranlığı.
Sən elə bir günəşsən ki,
Yaşadırsan insanlığı.

# UŞAQLIQ XATİRƏLƏRİM

Bulaq suyu  kimi süzülüb gələr,
Muncuq  kimi ipə-sapa düzülər,
Yatmış düşüncəmdə tez-tez dirçələr,
O, bəzən ağlayar, bəzən də gülər.
Ey əziz uşalıq xatirələrim,
Saf, təmiz uşaqlıq xatirələrim.

Quştək qanadlanıb göydə uçursuz,
Uşaqlıq dünyamı mənə açırsız.
Ömrümə,qəlbimə işıq saçırsız,
Hərdən nə olur ki, məndən qaçırsız,
Ey əziz uşalıq xatirələrim,
Saf, təmiz uşaqlıq xatirələrim.

Bəzən  çıxırsınız uca bir dağa,
Ordan  enirsiniz gözəl yaylağa.
Məni gözləməyib, gedib qabağa,
Dönürsüz yaddaşda nurlu çırağa.
Ey əziz uşalıq xatirələrim,
Saf təmiz uşaqlıq xatirələrim.

Gözümdə  bir aslan, igid ərsiniz,
Keşiyimdə duran bir əsgərsiniz.
Hələ  yazılmamış bir əsərsiniz,
Mənə  sevincsiniz, həm kədərsiniz.
Ey əziz uşalıq xatirələrim,
Saf, təmiz uşaqlıq xatirələrim.

Siz mənim sevgitək ürəyimdəsiz,
Tükənməz arzumda, diləyimdəsiz.
Qolumun gücütək biləyimdəsiz,

Bir dost kimi daim köməyimdəsiz.
Ey əziz uşalıq xatirələrim,
Saf, təmiz uşaqlıq xatirələrim

Zakiri daimi yoldaş seçdiniz,
Onunla çox uzun bir yol keçdiniz.
Dostluğa səaqət andı içdiniz,
Etibardan gözəl bir don biçdiniz,
Ey əziz uşalıq xatirələrim,
Saf, təmiz uşaqlıq xatirələrim.

# QƏZƏLLƏR

Yüz il yaşayıb yığma ögey varı Vətənsiz.
Dad verməyəcək  bağlarının barı  Vətənsiz .

Qürbətdə günün xoş, dadasan naz ilə nemət
Gündən-günə rəngin olacaq  sarı Vətənsiz.

Dünyanı gəzib, ən uca yerlərdə dolaşsan,
Çox tez əriyər dağlarının qarı  Vətənsiz.

Yad eldə tapıb cəm eləsən  başına dostlar,
Tez-tez itirərsən belə dostları Vətənsiz.

Aldanma havaya, suları şərbət olana,
Vəsf eyləmə çöllərdəki gülzarı Vətənsiz.

Kef çəkmək üçün özgə  vilayətlərə uysan,
Düz olmayacaq  vaxtının ilqarı Vətənsiz.

Zakir, nə qədər olsa da  hər yanda gözəllər,
Gəl seçməginən sən özünə yarı Vətənsiz.

Gər vəfasızsa nigar, istəmirəm.
Etibarsızsa o yar,  istəmirəm.

Bürünüb gül-çiçəyə olsa çəmən
Belə bir güllə bahar istəmirəm.

Gecə- gündüz çəkə lap həsrətimi
Ürəyi olsa qübar, istəmirəm.

Yolumu kəssə  Ərəbzəngi kimi
Eləsə dünyamı dar,  istəmirəm.

Qonaq etsə məni öz gül koluna
Sinəmə qonsa da xar,  istəmirəm.

Desələr ək bağına, barını gör,
Mən onu versədə bar, istəmirəm.

Zakirəm, sevgisinə yox, inamım
Etmişəm aləmə car, istəmirəm.

Validlər üçün bir yekə əmmadı pis övlad.
Dadsız edir övladd olan dadı  pis övlad.

Hər evdə olur bir belə  nankor, sözəbaxmaz
Ev tikməli yox, sökməli bənnadı  pis övlad.

Yox fərqi  əgər qız ola, ya oğlan uşağı
Məmnun eləyir düşməni, hər yadı  pis övlad.

Nazın çəkirik, bəsləyirik pərvaz edincə
Mehman eləyir bizlərə fəryadı  pis övlad.

Söyməklə, nə də döyməklə düzəlmir belə tiplər
Pis xəttlə yazılmış qəliz imladı  pis övlad.

Yalvarmasın heç kəs, ona söz batmayır əsla
İstəkdən uzaq başqa təmənnadı  pis övlad.

Bəd işlərə, çirkin yola tez meyl edir onlar
Hər ailədə ayrıca mənadı  pis övlad.

Pislik görə bilməz o yaxın doğmalarından
Lakin özü tox olsa da ədnadı  pis övlad.

Zakir, agah ol, gör nə çəkir valideynlər
Sal şerə oxu, bəlkə bir anladı  pis övlad.

Ey yar keçərəm ən uca dağları çəninçün.
Eşqim əridər dağdakı qarları cəninçün.

Gördüm səni, könlüm quşü düz bağçana qondu
Əkdim, suladım meyvəli bağları səninçün.

Qəlbim içi abad, qoşa eyvanlı saraydır
Gəlsən bəzərəm bir-bir otaqları səninçin.

Axtarma gülüm, sevgini tənhalıq içində
Mən saxlamışam sevgili çağları səninçün.

Mənsiz işığın heçdi qaranlıq gecələrdə
Gur yandıraram mən o çıraqları səninçün.

Baxdım nə qədər, çöhrəni görmək ümidilə
Kövrəldi gözüm, hönkürüb ağladı səninçün.

Hicran calayır ömrümüzə qap-qara günlər
Sənsiz ayırıb yığmışam ağları səninçün.

Axır elədin eşqin ilə Zakiri şair
Hər gün çevirir şeirə varaqları səninçün.

Gəl çıxaq seyrə baxaq, gör nə busat var Bakıda.
Dəyişib görkəmini, başqadı bulvar Bakıda.

Köhnəlikdən bir əlamət üzə çıxmır  gözünə
Ucalır göylərə  son dəbli  binalar Bakıda.

Abad olmuş küçələr, həm də genişdir necə də
Bəzəyir park və xiyabanları “küknar” Bakıda.

Çöl- çəmən ətri yayır parklarının gül- çiçəyi
Açılır hər tərəfə körpülü yollar Bakıda.

Bürüyür get-gedə ağ üzlü binalar şəhəri
Nə qədər insanımız sakin olubdur Bakıda.

İdmanın hər növünə bax nə saraylar tikilib
Oynanır dünyada ən güclü oyunlar Bakıda.

Dolaşır yer üzünü  şöhrəti  baş kəndimizin
Unudar düşsə yolu Londonu lordlar Bakıda.

Hər tərəfdən bu yerə  gündə turistlər də gəlir,
Bu gözəlliklərə heyran qalır onlar Bakıda.

Zakir, aç gözlərini bax gecə fəvvarələrə
Səni məftun edəcək çox belə anlar Bakıda.

Ey gülüm gəl yanıma, bax mənə göz vur gülərək
Əlini boynuma sal üzümə üz vur gülərək.

Heyranam göz-qaşına, qırpma nahaq kirpiyini
Oxunu çilləyə qoy, sinəmə düz vur gülərək.

Könlümün döy qapısın, susma, soruş əhvalımı
Canımı odlayacaq bir neçə söz  vur gülərək.

Nə günah sahibiyəm, gec görünürsən gözümə
Eşqimin çal sazını mizrabı tez vur gülərək.

Olmasa könlünə xoş saxla yarımçıq sözümü
Dilimi kəs yarala, üstünə duz vur gülərək.

Gəl yığış köç içimə qəlb evimin sakini ol
Sal naxış yollarıma ömrümə iz vur gülərək.

Bir odam, var alovum, sənsiz ocağım sönəcək
Odunu qat oduma tüstümə köz vur gülərək.

Zakirəm, gəl yanıma çəkməyək hicran qəmini
Qısılaq bir-birinə, dizimə diz vur gülərək.

Yar küsüb, ya naz edir, gəlməyir heç güllü bağa.
Bilmirəm neyləmişəm mən yenə o gülyanağa.

Gündə yüz yol baxıram bağa tərəf bəlkə görəm
Dönmüşəm xəstəsinə, düşmüşəm artıq yatağa.

Nə çətinmiş yaşamaq yar təmasından aralı
Qalıb həsrət dodağım gül qoxuyan bal dodağa.

Boylanıb hansı tərəfdən baxıram yox sorağı
Bəlkə mənlə görüşə yara qoyublar qadağa.

Hanı o günlərimiz, birgə gəzərdik çəməni
Baş çəkib güllü bağa bənzər olardıq qonağa.

Ey mənim şux gözəlim, gəl bağa, gizlənmə daha
Bəs deyilmi bu qədər  sən məni çəkdin sınağa.

Zakirəm, qəlbimə gir, gör nə vəfa sahibiyəm
Yenə bir yerdə  olaq getmə gözümdən qırağa.

Bədguman olma könül, gözlə, nigarın gələcək
Həsrətin çəkdiyin o işvəli  yarın gələcək.

Demə pünhandı çiçəyin, açacaq qönçəsini
Yolunu səhman elə güllü baharın gələcək.

Salacaq bağçasına, bənd olacaqsan  gülünə
Sinəsində əl atıb dərməyə narın gələcək.

Məst edib ətri ilə ağlını çox azdıracaq
Eşqinə sadiq isə sökmə hasarın gələcək.

Azacıq olsa əgər, vurma üzə nöqsanını
Tərk edib getsə səni naləyi-zarın gələcək.

Səbrini qoyma daşa, hövsələ təng olma belə
Çəkəcək qaşa qələm, zülfə tumarın gələcək.

Zakir, öz könlün ilə bəsdi danışdın bu qədər
Döndərib sən tərəfə yar da güzarın, gələcək.

Hamının mənzilinə sakin olubdur qocalıq.
Dən salıb saçlarına, hətda yolubdur qocalıq.

Milyon illərdi gəzir bəlkə də o yer üzünü
Qoşulub çaylara ummana dolubdur qocalıq.

Nə ki, insanlara, heyvanlara lap tez yoluxur
Öldürür, ölmür özü, “sura” qalıbdır qocalıq.

Kişi olsun, ya qadın, fərqi nə imiş ki, ona
Güman etmə dayanıb, fikrə dalıbdır qocalıq.

Kişini  mindiyi öz nər dəvəsindən düşürür
Arvadı ərdən uzaq, ayrı salıbdır qocalıq.

Olmayır getdiyi yoldan  geri qaytarmaq onu
Başımız üstünü  vaxtsız  da alıbdır qocalıq.

Çoxunun ömrünə ən yaxşı çağında soxulub
Döndərib  əqrəbi xərçəngə çalıbdır qocalıq.

İdmana, pəhrizə aldanma a Zakir qulaq as
Qalxdığın dağlara da  çox ucalıbdır qocalıq.

Qəlbimi oxla dələn qövsi-kamanım sənsən.
Mənə dərman edəcək bircə gümanım sənsən.

Atmısan oxlarını yayını gəl gizlətmə
Sancılıb köksümə, cismimdəki canım sənsən.

Hopmusan canıma qəlbim susacaq ayrılsaq
Hər yaramdan sızılan isticə qanım sənsən.

Sən olan yerdə bəzər bağçamı, solmaz güllər
Həm başım üstdə günəş, həm də dumanım sənsən.

Düşmüşəm ovsununa, sehri bu imiş eşqin
Mənə rəhm et gözəlim, əfvi-amanım sənsən.

Bu qədər susma gülüm, aç gözünün yaşmağın
Səni sevməkdə əsil vaxtdı, zamanım sənsən.

Gəl qısıl ağuşuma, qoyma yaxın hicranı
Ol xəbərdar ki, mənim ən gözəl anım sənsən.

Zakirəm, əllərimi üzmərəm heç vaxt səndən
Yox desən istəyimə bil ki, yamanım sənsən.

Adamın könlün açır, qəm dağıdır  baməzə söz.
Vay o gündən, arada  bəd əməl ilə gəzə söz.

Söhbətə başlamamış, aqil olanlar  düşünür,
Hədərə söyləməyir  qanmaza, dilbilməzə söz.

Dünyada çox danışan, gop danışan var nə qədər
Danışırlar gecə-gündüz, calayırlar sözə söz.

Gah olur gövhəri-zər, gah düzülür inci kimi,
Gah dönür zəhri-mara, fayda  gətirmir bizə söz.

Ehtiyatsızlıq edib boş buraxarkən qabağın,
Dolaşır dağı, aranı, yayılır lap düzə söz.

Xoşa gəlsin deyə, vallah, nə qədər incələsək,
Nə səbəbdənsə  sevilmir deyilərkən üzə söz.

Olmayır çıxdığı yerdən geri qaytarmaq onu,
Çırpılır dil-dodağa, az qalır hətda  əzə söz.

İşlədərkən onu sərraf, daha qiymətli olur
Yox əyər xırdalasaq, onda çətin ki, dözə söz.

İstəyirsən biləsən sən də sözün hikmətini,
Zakirin şeirin oxu, gör nə gözəldir təzə söz.

Olacaq nazlı nigar bağda qonağım bu gecə.
Açacaq qönçəsini  lalə yanağım bu gecə.

Mənə biganə deyil, eşqinə sadiqdi yarım
Dodağı bal dadacaq dəysə dodağım bu gecə.

Həsrətəm gülcamalın gül bitirən sözlərinə
Eşidib dinləyəcək yarı qulağım bu gecə.

Bilirəm, sübhə qədər bitməyəcək söhbətimiz
Axacaq zümzüməli, sözlü bulağım bu gecə.

Eşq odunda alışıb yanmaqdayıq hər ikimiz
Yetəcək dadımıza xəlvəti, bağım bu gecə.

Nə gərək sevgilimə özgə ağacın bəhəri
Enəcək səcdəsinə barlı budağım bu gecə.

Zakirəm, eşqimizin açmışam artıq yolunu
Yar vüsalın dadacaq bəlkə damağım  bu gecə.

Canımı aldın əsir, rəhm elə öldürmə daha.
Məni Məcnun eləyib, aləmi güldürmə daha.

İşvə göndər, naz ilə keç qabağımdan, nə olar
Qoy yanım atəşinə, şamımı söndürmə daha.

Eşqimi söyləməyə bircə görüş istəyirəm,
Gəl könül həmdəmim ol, hicranı öydürmə daha.

Sənə bənd olmağıma  zərrə də peşman deyiləm
Qəlbinin aç qapısın, yad qapı döydürmə daha.

Yarım ol, yarın olum,ömrü vuraq başa qoşa
Canını canıma qat, özgəyə böldürmə daha.

Çək məni gül bağına, məst elə öz ətrin ilə
Tozu həsrət qoxuyan yolla süründürmə  daha.

Aç vüsalın qucağın, eşqini ver butə mənə
Zakirə müjdə gətir, əğyara söydürmə  daha.

Cənnət sanaram bağça və bağları sən olsan.
Bir-bir əyərəm barlı budağları sən olsan.

Rahat görünər  hər nə çətinliklərə düşsəm
Vallah aşaram ən uca dağları sən olsan.

Ömrüm keçə  hər gah ki, narahatlıq içində,
Qəlbim unudar qüssəli çağları sən olsan.

Sənsiz  nə gözəllik, nə gözəllər mənə xoşdur
Mən neyləyirəm özgə yanaqları sən olsan.

Hərdən "Nəbi" tək yan qoyaram mən də papağı
Yəqin eşərəm, burmağa bığları  sən olsan.

Bir busəmə həsrət qala, çat versə dodaqlar,
Mən öpmərəm o rəngli dodaqları sən olsan.

Zakir də sevir, mən bilirəm, tər şamamanı,
Axtarmayacaq  qeyridə tağları sən olsan.

Səbr elə,  gözlə məni sevgili yarım, gəlirəm.
Yetişibdir bilirəm bağdakı narım, gəlirəm.

Oxudum sevgi ilə  yazdığın eşq məktubunu,
Ey məni kama çəkən  nazlı nigarım, gəlirəm.

Hicranın çatdı sonu, indi vüsalın dəmidir
Həsrətəm ağuşuna güllü baharım, gəlirəm.

Səni çox gözləmişəm, izləmişəm yollarını
Mən sənin səyyadınam, sənsə şikarım, gəlirəm.

Taleyin güldü üzü,  parladı baxt ulduzumuz
Yolum artıq yarıdır, ey vəfadarım, gəlirəm.

Bu görüş dəvətinə yox deyə bilməzdim inan
Həmdəmim, sevgi həyatımda mədarım, gəlirəm.

Zakirəm, yox daha taqət ki, dözəm ayrılığa
Kamanı köklə, segah üstdədi tarım,  gəlirəm.

İnsanlara hər yerdə şərafətdi məhəbbət.
İnsanlığı təsdiqə şəhadətdi məhəbbət.

Məhrəm sayılır cümlə bəşər nəslinə hər an
Qəlbdən yol alıb, qəlbə səyahətdi məhəbbət.

Var onda nəvaziş dolu ən ülvi məqamlar
Övlad, analıq borcu, sədaqətdi məhəbbət.

Bədbinliyi, bədxahlığı, biganə həyatı,
Dəf etməyə insanda dəyanətdi məhəbbət.

Mütləqdi bütün canlılara cövri-cəfası,
Həm tanrı hüzurunda şəfaətdi məhəbbət.

Məmnun qalır ondan sevərək, həm sevilənlər
Coşqun bir həyat, zövqi-səfaətdi məhəbbət.

Övladi bəşər xali deyil mərhəmətindən,
Həm mənəvi, həm maddi səxavətdi məhəbbət.

Xalqa,Vətənə, torpağa sönməzdi marağı
Dünyəvi məram, ən gözəl adətdi məhəbbət.

Zakir,eşit, insanlıq olan yerdədi sevgi
Hər canlı həyatında səadətdi məhəbbət.

Ey mələksima gözəl, sən məni heyran elədin.
Oxşadın gözlərimi, könlümü seyran elədin.

Sənə baxdıqca dedim; kaş  belə bir yarım ola
Gümanım çıxdı boşa, arzumu viran elədim.

İstədim göndərim ünvanına eşqin butasın
Gizlədib ünvanını örtülü eyvan elədin.

Gəldim eyvana yaxın, bəlkə görəm gül üzünü
Sözləşib həsrət ilə, qəsdimə peyman elədin.

Pərdə çəkdin üzünə, gəlmədi rəhmin gözümə
Axıdıb hər dəfə göz yaşımı leysan elədin.

Çıxdım oylağına,  gəzdim ki, tapım izlərini,
Məni səyyad,özünü bir dəli ceyran elədin.

Tapdım axır ki, səni, gördüm uzaqdan- uzağa
Ömrümə doğdu günəş, bir yeni dövran elədin.

Qaşların yay kimi dartındı, çəkib kirpiyini
Qəlbimi oxlamağa sinəmi meydan elədin.

Zakiri müjdələdin sən deyəsən eşqin ilə
Nə səbəbdən gözəlim, bəs üzünü yan elədin?

Zənn etmə bu dünyaya qonaq olmağa gəldim.
Dünyanı gəzib, hər yerini bulmağa gəldim.

Mən bir bəşər övladıyam, ağlım, əməlimlə,
İş görməyə, ad qoymağa, iz salmağa gəldim.

Qəlbimdə məhəbbət, yaşamaq adlı bir eşq var
Bu eşqlə  həyat nəğməsini çalmağa gəldim.

Sevdim gözəl insanları, həm rəğbətim artdı
İnsanlığa yol açmağa, zövq almağa gəldim.

Şeirin, qəzəlin, musiqinin vurğunu oldum,
Hərdən bu sənət aləminə dalmağa gəldim.

Cismim nə qədər varsa  görüb faydalı işlər,
Ruhumla bu dünya uzunu qalmağa  gəldim.

Zakir, demə dünyanı uçurdur bədəməllər
Uçmuşları bir-bir təzədən qurmağa gəldim.

Könlümün həmdəmisən,  gördüyüm andan bu yana.
Sənə yarım deyirəm,  aşiq olandan bu yana.

Sən mələksənmiş a dilbər, yerişindən bilinir
Əndamın çox yaraşır sərri-xuraman boyuna.

Qonağımdır  mənim hər gün  səni görmək ümidi
Səbr ilə gözləyirəm baxtımı, bəlkə oyana.

Gəl görün gözlərimə,qoyma darıxsın ürəyim
Başlayaq hakimi eşq adlı o məşhur oyuna.

Mənə naz eylə, əzab ver, qula döndər, dözərəm
Dözmərəm ayrılığa, getmə gözümdən o yana.

Elə bənd olmuşam, hicran kəsə bilməz yolumu
Qorxuram hansısa əğyar aramızda dayana.

Zakirəm, ol mənə məhrəm,  yönünü sal yanıma
Yandır eşqin çırağın, nuruna qəlbim boyana.

Rahat ömrə nə qədər zərbə  vurur pis vərdiş.
Adamın vayına vaxtsız oturur pis vərdiş.

Ona aludə olanlar itirir növrağın
Əyləyib atlarını yolda, yorur pis vərdiş.

Gah olur ailənin düşməni, gah danlağı,
Dağıdır göz görəsi, ev uçurur pis vərdiş.

Yoluxur hər cürə insana cəmiyyət içrə
Çoxuna hiylə gəlib, tor da qurur pis vərdiş.

Döndərir zorla cinayətkara çox oğlanı,
Qanırıb qollarını dala, burur pis vərdiş.

Onu tərgitməsən hərgah sürəcək  dövranın
Yalını  artıq edərkən qudurur pis vərdiş.

İşləyir qana zəhər tək aparır canları,
Çevrilir bir zəliyə, qan da sorur pis vərdiş.

Zakir əlbətdə, uzaq olsa da  bu vərdişdən,
Çox təəssüf  ki, cəmiyyətdə durur pis vərdiş.

# LİRİK POEMALAR

## AİLƏ QALASI

*(Lirik poema)*

### Proloq

Bilirsən nədir aılə?
Bilmirsənsə səbr elə.
Qulaq as, ol bir agah,
Burda əsasdır nigah.
Gənclərin izdivacı,
Həm şirindir, həm acı.
Mənəvi cavabdehlik,
Sevmir heç bir laqeydlik.
Bu ictimai birlik,
Sevir bərabərlik.
Deyilən bir acı söz,
Qəlbə salır yanar köz.
Sevgi, qayğı və diqqət,
Qarşılıqlı məhəbbət.
Omrə sanki məlhəmdir,
Həm sevincdir, həm qəmdir.

1

Ailə bir qaladır,
Ər, arvad və baladır.
Özülü məhəbbətdir,
Kərpici sədaqətdir.
Sadiq olsa, ər-arvad,
Olacaq QALA abad.
Divarı ədalətdən,
Hasarı cəsarətdən.
Varsa məhəbbət hissi,

Xoşbəxtdir hər ikisi.
Körpə gəlsə dünyaya,
Ömrə verəcək ziya.
Hörmət daha da artar,
Hamı arzuya çatar.
Ailə bir qaladır,
Sevinci də bal dadır.
Olsa dostlar dayağı,
Dəyməz düşmən ayağı.
Ağıl burda hakimdir,
Sevgi burda həkimdir.
Sağlam düşüncə hər an,
Yatmayıb olur həyan.

2

Tükənməməkçin səbir
Töküldü neçə tədbir.
Haq-ədalət yer aldı,
Haqsız kədərə daldı.
Ulu, uca Tanrıya
Şükür gəlmədi saya.
Ötsə də uzun illər,
Dəyişsə də fəsillər
Nə külək, nə qar, yağış
Nə sərt şaxta, nə də qış
Dağıtmadı QALANI,
Bizi eşqə salanı.
Qalanı tikən insan
Danışmazdı heç yalan.
Bu qala bir tikinti,
Görmədi bir əyinti.
Son dərəcə diqqətli,
Qızıldan da qiymətli

Dülgər dəqiqliyilə,
Zərgər dəqiqliyilə
Tikilən bu qalalar,
Uzun ömürlü olar.
İşlər təmiz görüldü,
Xeyir-dua verildi.
Yüz ölçüb bir biçdilər,
Çətin yollar keçdilər.
Hamı qan-tərə batdı,
Tikinti başa çatdı.
Burda dəmir iradə
Məlhəm oldu hər dərdə.
Qaladakı saf təməl,
Onu quran halal əl,
Çəkilən əziyyətlər,
Xoş əməl, xoş niyyətlər
Seçib ağı-qaranı,
Yaşatdı bu qalanı.
Təkəbbür oldu uzaq,
Alın açıq, üz də ağ.
Kin-qəzəb yasaqlandı,
Həyatdan uzaqlandı.
Yer aldı mehribanlıq,
Çiçəkləndi cavanlıq.
Çalışar Günəşlə Ay,
İstər olsun bizə tay.

3

Söz açıram sizə mən,
Təmiz eşqdən, sevgidən.
Vardır çoxlu qalalar
Uzun müddət qalarlar.
Ancaq ailə qalası,

Çox böyükdür mənası.
Bəzən bizə dərd olur,
Şaxta kimi sərt olur.
Yayı isti-yandırır,
Qışı soyuq-dondurur.
Vahid planı yoxdur,
Şəri, yalanı çoxdur.
Hər qalanın sxemi,
Vardır özəl aləmi.
Çox kövrəkdir bu qala,
Külək əssə, dağılar.
Qorumasaq olar gec,
Sökülər kəpic-kərpic.
Məsləhətim var sizə,
Kədər qonmasın üzə.
Nə tufan, nə qar, külək,
Yalan, hiylə, yüz kələk
Yıxa bilməz qalanı,
Möhkəmdirsə dörd yanı.

Ailə bir qaladır,
Onu segi yaradır.
Qayğı, hörmət həmişə,
Dönür sonda vərdişə.
Hakim olsun məhəbbət,
Edin şeytana lənət.

4

Bəzən də belə olur,
Güllər açmadan solur.
Qalalar da belədir,
Çəkilən zəhmət itir.
Yaxşı seçilmir yeri,

Artırır dərdi-səri.
Qalanı tikən usta
İşi görməsə asta.
Ürəkdən olmasa iş,
Sənət qazanmaz alqış.
Az olanda sement, qum,
Yaxşı olmaz son durum.
Möhkəm qoysan özülü,
İşlər onda düzəlir.
Yoxsa dayanmaz qala.
Düşər tanınmaz hala.
Bəlkə xain əl görüb,
Bəlkə pis əməl görüb.
Aşmaq üzrədir Qala,
Əyilir sağa, sola,
Qəzalı yerdə insan
Yaşaya bilməz inan.
Ayıq olsa cavanlar,
Mənim fikrimi anlar.
Qorusalar qalanı,
Yaxşı olar qalanı.

5

Ailə qalaları,
Elin dövləti, varı.
Hər dövlətin özəyi,
Cəmiyyətin bəzəyi.
Gəl onları qoruyaq,
Hər zaman dayaq olaq.
Hər qala cəsur əsgər,
Düşmənin boynun əyər.
Şər, şübhəli toxumlar,
Həyatda pis hər nə var,

Qoy keçməsin qalaya,
Hamı gəlsin haraya.
Pis əməl, pis niyyətlər,
Yersiz sözlər , söhbətlər.
Qoy yan keçsin qaladan.
Hifz olsun dərd, bəladan.
Qoruyaq hər kərpiçin,
Arzuları olsun çin.

6

Düz tikilmiş bu qala,
Göyə çatdı az qala.
Heç bir kərpici, daşı
Görmədi qəm, göz yaşı.
Qala tikdik yaşadıq
Məsuliyyət daşıdıq.
Bilirdim mən əzəl
Ömür vəfasız gözəl.
Ona etibar yoxmuş,
Yalanı qat-qat çoxmuş.
Yetişəndə məqamı
Əcəl tapır adamı.
Qalada gözüm qaldı,
Mən getdim, gözüm qaldı.
Çox razıyam həyatdan,
Həzz aldım toy-busatdan.
Sən çalış hər zaman,
Uğurla çıx sınaqdan.
Əla olsun qiymətin,
Yaşasın məhəbbətin.

7

Dilimdə Allah sözü,
Qəlbimdə Allah özü.

Qeybətdən uzaq olaq,
Xeyir-dua qazanaq.
Şeytanı lənətləyək,
Tamaha biz yox deyək.
Olub bir şahmar ilan,
Çalmasın bizi yalan.
Bir-birinə inanaq,
Etibarın qazanaq.
Gül ətri saçsın hər yan,
Xoşbəxt yaşasın insan.
Zəfər çalsın ədalət
Qoy yaşasın məhəbbət.
Ağsaqqalı xoş üzlə,
Ağbirçəyi şən üzlə
Qarşılayaq daim biz,
Rahat olsun qəlbimiz.
Yox olsun qoy cəhalət,
Yaşasın qoy məhəbbət.

## Epiloq

Sən QALA-nın küncündə,
Şam yandır hər bürcündə.
Ucalsın bayrağımız,
Gül açsın torpağımız.
Qoruyaq  Qalaları,
Şən üzlü balaları.
Tale olsun bizə yar,
Çiçəklənsin bu diyar.
Xoşbəxt olsun cavanlar,
Yaşasın gözəl anlar.
Zakir etdi Nəsihət,
Qoy var olsun məhəbbət.

## ÖVLAD
*(Lirik poema)*

### 1-ci hissə

Tanrının payıdır övlad anaya,
Sevinci sığmayır bütün dünyaya.
Onunla yüksəlir ulduza, aya,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Ananın şad günü, vuran ürəyi,
Atanın evinin polad dirəyi,
Fani dünyamızın zəri, bəzəyi,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Kimin ki, övladda bəxti gətirib,
Ömür bağçasında ağac bitirib,
Vətənçin layiqli insan yetirib,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Övlad var, həmişə çox zəhmət çəkir,
Yol çəkir, bağ salır, ağaclar əkir.
Qalalar ucaldır, saraylar tikir,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Övlad var, işləyir, özünü yorur,
Ehtiram göstərir, qulluqda durur.
Onunla qohumlar keçirir qürur,

Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Qoy Tantı hamıya bir övlad versin,
Əkdiyi ağacın barını görsün.
Fəxr etsin hər yerdə, xoş ömür sürsün,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Övlad var, heç kəsi çətinə salmaz,
Özgənin malında heç gözü olmaz.
Kimsənin önündə o, borclu qalmaz.
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Övlad var, ananın yeyər aşını,
Daşının üstünə qoymaz daşını.
Tökər atasının gözdən yaşını
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Övlad vardır gözün, ağı qarası,
Gündə vurur valideynə söz yarası.
Pozur yuxusunu gecə yarısı,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Oğul var, hər yerdə vargirlik edir,
Asan qazac üçün o, riskə gedir.
Səhv əməl çox keçmir onu büdrədir,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Oğul var, həyatda pis məqsəd güdür,
Oğurluq edərək uçruma gedir.
Ata-anasının ömrün çürüdür,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Övlad var, yesə də gündə yağlı aş,
Salır yemək üstə o, dava-dalaş.
Gedib işləməyir bir yerdə külbaş,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

**2-ci hissə**

Valideyn övladçın çox zəhmət çəkir,
O, isə nə ağac, nə bir gül əkir.
Gözünü atanın cibinə dikir,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Övlad var, heç kimə boyun əyməyir,
Bir az nimdaş olsa paltar geyməyir,
Nə etsə, xətrinə heç kəs dəyməyir,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Pis övladla birgə yaşamaq çətin,
Çünki vurur yerə ata zəhmətin.
Qazanır düşmənin, dostun nifrətin,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Təzə nə çıxırsa, alır özünə,
Görənlər düşünür, tapıb xəzinə.
Ata müflis olub, döyür dizinə,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Övlad var, zəhəri qoyur dilinə,
Sancar ilan kimi düşsən əlinə.
Nə ad verək onun bəd əməlinə,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Zamanın nəbzini tuta bilməyir,
Qabaqda gedənə çata bilməyir.
Özündən zəifə bata bilməyir,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Övlad var, heç yerə sığmaz tamahı,
Danar Peyğəmbəri, danar Allahı,
Tutar gözlərini yetimin ahı.
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Bəd övlad üzündən yata bilməzsən,
Necə acı olsa, ata bilməzsən.
Aparıb bazarda sata bilməzsən,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Nə deyəsən bu dünyanın işinə,
Soyuq suyu tökür isti aşına.
Övladın pisdirsə, döy öz başına,

Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

**3-cü hissə**

Oyan, qalx ayağa, ey qafil insan,
Ömür su tək axır, dayanmır zaman.
Qızıldan diymətli olur keçən an
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Doqquz ay bətnində gəzdirib ana,
Övladı gətirir bizim cahana.
Bəzən övlad da qənim kəsilir ona,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Ağlama, ay ana, dayan, ağlama,
Bu şair qəlbimi belə dağlama.
Pis qıza, oğula sən bel bağlama,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Yumşalt daş qəlbini, ey övlad, bir az,
Hirsli başda ağıl heç zaman olmaz.
Səhv işin axırı xeyirli olmaz,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Bəlkə, anan qalıb yataqda xəstə,
Dur get hüzuruna tez üzr istə.
Öp əl-ayağını, çök dizin üstə,

Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Nə qədər müqəddəs, əzizsən ana,
Şam kimi əridin sən yana-yana.
Lənət o övlada, haqqını dana,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Övlad valideynə çıxsa naxələf,
Axırda özünü eləyər tələf.
Allah axirətdə onu etməz əfv,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Dünya insan üçün imtahan, sınaq,
Gəldik bu dünyaya beşgünlük qonaq,
Gərək Yaradanı biz razı salaq,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Nankor övladların yolun bağlayaq,
Verək cəzasını, qolun bağlayaq.
Niyə biz bu işi gizli saxlayaq,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Qoy eşitsin əyri yolu seçənlər,
Ata mülkün satıb, yeyib-içənlər.
Tövbə etsin haram əkib-biçənlər,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Bu gündən dünyaya saf hava gəlsin,
Xəstə könüllərə qoy şəfa gəlsin,
Oğullar və qızlar insafa gəlsin,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Var olsun hər kəsdə səbir və ağıl,
Nadanlar deməsin gərəksiz nağıl.
Deməsin insanlar, ey dünya, dağıl,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Övladlara yaxşı tərbiyə verək,
Onlardan da gözəl nəticə görək.
Ataq pis vərdişi, şən ömür sürək,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Cahanı bəzəsin layiqli övlad,
Yer üzün daha da eləsin abad.
Onlardan tarixdə qalsın yaxşı ad,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

Tanrım, sən Zakirə, beş övlad verdin,
Maşallah, ağıllı, səbirli, mətin.
Çəkir el-obanın namus-qeyrətin,
Valideynə qoşa qanaddır övlad,
Bəzən qəlb evini eləyir bərbad.

# TUSİ

*(Lirik poema)*

## Proloq

Azərbaycan adlı bu məmləkətdə,
Çox insan yetişib hər bir sənətdə.

Filosov, psixoloq, şair və alim,
Siyasət adamı, sərkərdə, həkim...

Səkkiz əsr əvvəl Nəsrəddin Tusi
Dahi insanlardan oldu birisi.

Elmdə yenilik edən bu insan,
Yetmiş üç yaşında köçdü dünyadan.

Bəşər unutmadı öz övladını,
Tarixə zər ilə yazdı adını.

"Nisbətlər" adlanan nəzəriyyəsi
Oldu riyaziyyatın gücü, qüvvəsi.

O, çox elmlərdə qələm sınadı,
Tarixə əbədi yazıldı adı.

1

Deyirlər, min iki yüz birinci ildə,
İranda Həmədan adlı bir eldə.

Həsənin bir oğlu dünyaya gəldi,
Onun şərəfinə məclis düzəldi.

Məhəmməd qoyuldu uşağın adı,
Bu ad sevindirdi qohumu, yadı.

Körpə doğulmuşdu dolça bürcündə,
Ulduzlar gülürdü sevinc içində.

Belə söylədilər öncəgörənlər-
İnsan taleyini öncə deyənlər.

Bu uşaq günəştək işıq saçacaq,
Ağılla çox bağlı qapı açacaq.

Yaxşı  müəllimlər dərs desə ona,
Çatacaq sorağı bütün cahana.

Elmə verəcəyi böyük tövhələr,
Alacaq hamıdan yüksək bir dəyər.

2

Tusi ilk təhsilin ailədə aldı,
Evdə müəllimi atası oldu.

Sonra da məktəbdə Bəhmənyar müəllim,
Verdi ona təhsil, tətbiyə, təlim.

Yetkin təhsil aldı Tus şəhərində,
Xalq “Tusi” çaqırdı nisbə yerində.

O, bu təxəllüslə göyə ucaldı,
Sadə ömür sürdü, sonra qocaldı.

3

Açdı Marağada bir rəsədxana,
Bu iş böyük şöhrət gətirdi ona.

Bura gətizdirdi çoxlu cihazlar,
Öyrənildi cihazlarla ulduzlar.

Zəngin kitabxana yaratdı burda,
Onun da xeyirı  çox  dəydi yurda.

Dahi riyaziyyatçı, astronomlar,
Bu elmi mərkəzdə tutdular qərar.

Tusinin zəhməti getmədi hədər,
Onun kəşflərindən qazandı bəşər.

Bu yer kürəsinin fırlanma oxu,
Nə olan bir şeydir, öyrəndi çoxu.

Dünyada üç yüzdən artıq şəhərin,
Yaratdı  astro-fiziki cədvəlin.

Oksfordda, Londonda və Romada
Tusi qüvvət tapdı həddən ziyada.

Onun əsərləri  nəşr olundu,
Beləliklə, o, dünyada tanındı.

Ölməz əsərləri yazıb bitirdi,
Elmə təzə ab-hava gətirdi.

Yeni nəfəs verdi o, həndəsəyə,
Saysız uğurlarla ucaldı göyə.

Riyaziyyat, fizika, astronomiya,
Coğrafiya və triqonometriya

Tusinin beynindən ziya alırdı,
Elmin yollarına işıq salırdı.

Öz dövrünə görə elmi baxışı,
Saldı fəlsəfədə təzə naxışı.

Şərq elminə çox yenilik gətirdi,
Tanrı onu arzusuna yetirdi.

Dünyanın dərkinə qıldıqca nəzər,
Yazdı bu barədə sanballı əsər.

"Dövlət" və "Cəmiyyət" anlayışları,
Hüquq və siyasət üzrə işləri,

Mütəfəkkirə şan-şöhrət gətirdi,
O, elm bağçasında güllər bitirdi.

Dövlət işlərində səylə çalışdı,
Saray həyatına çox gec alışdı.

Məsləhətçi oldu Hülaki xana,
Bu iş də şöhrətlər gətirdi ona.

Abada xanın baş vəziri oldu,
Hər iki xan ondan çox razı qaldı.

Lakin o, saraya gəlməzdən qabaq,
İşləri olmuşdu dolaşıq sayaq.

Tusi Kahistanda həbsə alındı,
Ələmudda zindanlara salındı.

Möhtəşəm Qalanı aldığı zaman
Tusinin üstündən çəkildi duman.

Həbsdən alimi azad etdilər,
Qəmli ürəyini çox şad etdilər.

Tusinin səadət günəşi doğdu,
İşıq qaranlığı vaxtında boğdu.

Siyasət, tibb, hüquq, dövlət-cəmiyyət,
Minerologiya və maliyyə, nəhayət.

Ölməz əsərlərdə yerini aldı,
Gələn nəsillərə yadigar qaldı.

Ayın və Günəşin tutulmasından,
İşığın sınması, yayılmasından,

Kainatda çoxlu gizli sirlərdən,
Möcüzəli, müəmmalı yerlərdən

Xəbər verdi yaxın, uzaq ellərə,
Adı düşdü dodaqlara, dillərə.

5

Səfərdə olarkən o, etdi vəfat,
Tusiyə yer verdi qoynunda Bağdad.

Məzarını bu şəhərdə qazdılar,
Baş daşında bu sözləri yazdılar:

"Müxtəlif cəhətli alimdir Tusi,
Elmiylə dünyaya hakimdir Tusi".

## HƏYAT YOLU
*(Lirik poema)*

Vardır hər insanın öz həyat yolu,
Məna və hikmətlə, sirlərlə dolu.

Tanrı yazır ömrə yolun yüzünü,
Enişini, yoxuşunu, düzünü.

Sığortası yoxdur yolun əzəldən,
Qaçmaq olmaz yolda qəza-qədərdən.

Yol var çətin, lakin çox şərəflidir,
Yol var, əyri-üyrü, birtərəflidir.

Yol var, keşməkeşli, çətin, mürəkkəb,
O yolu keçməyə çox vardır tələb.

Yol var, hamar, enli, gül-çiçəklidir,
Yol var, kələ-kötür, daş, kəsəklidir.

Enişi, yoxuşu vardır yolların,
Baharı, sərt qışı vardır yolların.

Bəzən yolu kəsir sıldırım qaya,
Çağırsan bir kəs də gəlmir haraya.

Bu zaman dərd üstə təzə dərd gələr,
İnsan əzab çəkər, ilantək mələr.

Çox davam edərsə belə vəziyyət,
Ürək tab eləməz, çəkər əziyyət.

Möhkəm iradəli olmasan əgər,
O saat xəstəlik qapını döyər.

Bu dünyada saysız həyat yolu var,
Onu bircə-bircə keçir insanlar.

İnsan var yolunu sonadək gedir,
İnsan var, yarıda onu tərk edir.

İnsan var bir yolu çıxmamış başa,
Arzusu, istəyi toxunur daşa.

Gör nə əzablıdır həyat yolları,
Yollar əldən salmış çox oğulları.

Olsa da ürəkdə min-min diləklər,
Hamını nəzərə almaz mələklər.

Sağ keçmək istəsən həyat yolunu,
Yaxşı-yaxşı yoxla sağ və solunu.

Heç zaman haqq yolda, büdrəmə, azma,
Allahın qoyduğu qaydanı pozma.

Saxla hörmətini ağsaqqalların,
Onda öz-özünə çoxalar varın.

Özündən böyüyə kobutluq etmə,
Şeytanın dediyi yol ilə getmə.

Əgər sən gözləsən haram, halalı,
Başın heç bir zaman olmaz bəlalı.

Varlısan, kasıbsan gözlə həddini,
Düz get öz yolunla əymə qəddini.

İsrafçılıq etsən, bərəkət olmaz,
Allah kəlamları icra olunmaz.

Bilirsən ki, israf sayılır haram,
Kilova çevrilər toplansa qram.

Əgər sən qorusan haqq-ədaləti,
Demək qoruyarsan bu məmləkəti.

Tamahdan özünü sən riskə atsan,
Ömrə bilə-bilə zəhəri qatsan.

Dayana bilməzsən heç ayaq üstə,
Səhhətin pozular, olarsan xəstə.

Əgər tamahını boğa bilsən sən,
Vicdandan ləkəni silə bilsən sən.

Yaddan çıxarmasan rəhmi, insafı,
Mələklər çiyninə yazmaz günahı.

Düz yolda heç zaman etmə xəyanət,
Yoxsa qazanarsan özünə lənət.

Bil ki, bu dünyada itsə etibar,
Nə dost, qardaş olar, nə sevgili yar.

Dura bilsən əgər dilinə sahib,
O zaman olarsan həyatda qalib.

Kimin öz yolunda varsa nöqsanı,
Çalışıb aradan götürsün onu.

Səhvsiz yaşamaq da çətindir, çətin,
Yalnız səhvi olmur boyük Qüdrətin.

Həyat bir sərvətdir, hər şeydən şirin,
Bu dadlı şərbəti sonadək için.

Qoy xoşbəxt, firavan keçsin  bu həyat,
Bəzəsin ömrünü dain toy, busat.

Dünyaya səs salsın xalqımın səsi,
Heç zaman susmasın həyat nəğməsi.

## ANA KÜRÜN SORAĞINDA
*(Lirik poema)*

1

Mingəçevirə mən qonaq gəlmişəm,
Bu yurdu özümə doğma bilmişəm.

Burda vardır çoxlu park və xiyaban,
Sanki hər ağaca baxıb bir bağban.

Şəhər səliqəli, yaraşıqlıdır,
Bütün gecələri gur işıqlıdır.

Bozdağ öz qoynuna alıb bu yeri,
Buraxmır buraya sərt külələri.

Mingəçevir-mənim gözəl şəhərim,
Günəşdən nur alan cavan şəhərim.

Budur... yenə Kürün sahilindəyəm,
İstəyirəm burda doyunca gəzəm.

Məni valeh edir gözəl gəzinti,
Bir də yaxınlıqda gedən tikinti.

Günü-gündən abadlaşır bu şəhər,
Burda insanlarla oyanır şəhər.

Ətrafda durmadan görülən işlər,
Böyük inkişafdan vermirmi xəbər.

Sanki gəl-gəl deyir işıqlı şəhər,
Yarışa çağırır günəşi şəhər.

2

Gənclikdə burada mən çox olmuşam,
Sonsuz gözəllikdən ləzzət almışam.

Sevən ürək sevməsə tabsız olur,
Xəzan vuran güllər kimi tez solur.

Bu yerlərdə sevmişəm bir gözəli,
Şəninə yazmışam mən ilk qəzəli.

Ana Kürün sularında üzdükcə,
Barmaqlarım tellərində gəzdikcə

Alovlandı içimdə eşqin odu,
Onda bildik gözəlmiş eşqin dadı.

Unutmaram heç vaxt o görüşləri,
Qəlbə məlhəm olan o öpüşləri.

Bu görüşlər eşqə bir bəzək oldu,
Şirin bir xatirətək yadda qaldı.

3

Burada mötəbər yarışlar keçir,
Hər dəfə insanlar qalibi seçir.

Qayıqla gəzməyə çıxdım bu axşam,
İstədim Kür ilə gülüb, danışam.

Qayıq sürmək gözəlmiş Kür çayında,
Xüsusən yay vaxtı- iyun ayında.

Doyunca qayıqla axşam üzdük biz,
Sonra da sahilə çıxıb gəzdik biz.

Salam əziz Kürüm, mehriban Kürüm,
Sənin xoş gününü hər zaman görüm.

Sularında bu Vətənə xeyir gətir,
Düzlərində xoş ətirli güllər bitir.

Havalansın aşıqların sazı, sözü,
Qoy kor olsun, düşmənlərin çıxsın gözü.

Zakir də eşqinə bir nağmə desin,
Qoy ellər dinləsin şairin səsin.

## XƏZƏR SAHİLİNDƏ

*(Lirik poema)*

-1-

Sevgilimlə belə qərar verdik biz,
Dedik görüş yeri qoy olsun dəniz
Eşqimizə şahid olsun sahillər,
Bu sevgiyə onlar versinlər dəyər.
Sahildə gəzişib söhbət edərik,
Görməli yerlərə qoşa gedərik.
Sərinlətsə bizi dənizin suyu,
Belə dincəlməyin olmaz heç tayı.
Dənizdə çimdikcə gəncləşir ürək,
Ona lazım olmur başqa bir kömək.
Böyük möcüzədir qum ləpələri,
Kənar edir candan o, dərdi-səri.
Maşına əyləşib dənizə sürdük,
Xəzəri sevgiyə ən yaxın gördük.

-2-

Xəzərlə dost kimi görüşərək biz,
Çılğın dalğalarla öpüşərək biz,
Baş vurduq o saat mavi dənizə,
Ləpələr dayandı bizlə göz-gözə.
Qarşıladı bizi çox gülərüzlə,
İzah etmək çətin adicə sözlə.
Ləpələr öpərək üz-gözümüzü,
Döndü ordan geri, qoyaraq bizi.
Təzədən dənizdən çıxıb sahilə,
Baxdı üzümüzə bir əda ilə.
Baş vurdu sahilə öpərək yeri,
Gəldi yanımıza qayıdıb geri.
Bizlə sağollaşıb qaçdı dənizə,

Quştək uçub getdi, dəymədi gözə.
Verərək əl-ələ bütün ləpələr
Sahilə bolluca inci səpdilər.
Qana-tərə batıb zəhmətlə onlar,
İnan çıxardılar min cür oyunlar.
Budur, baxın indi əl-ələ tutub,
Suya bata-bata istəyə çatıb.
Sanki yallı rəqsi ifa edirlər,
Sahilə baş vurub geri gedirlər.
Bu şən ləpələrdə bax sıx birliyə,
Dörd yandan dənizi alıb dövrəyə.
Onlar bir-birindən düşməzlər uzaq,
Əksinə, olarlar arxa və dayaq.
Külək,tufan inan çıxsa da göyə,
Çatmaz gücü onun birliyi əyə.
Çox çəkdi Xəzərlə sözüm ,söhbətim,
Getdikcə çoxaldı ona hörmətim.
Dinlədikcə inan mavi Xəzəri,
Tamam unutdum mən qəmi, kədəri.
Alovlandı qəlbdə məhəbbət közü,
Oyandı içimdə gəncliyin özü.
Sevincdən, fərəhdən çoşdu bu ürək,
Bir dağ çayı kimi daşdı bu ürək.
Uzaqdan ləpələr səsləyib məni,
Oxudu sevdiyim həzin nəğməni.

-3-

Lakin çox çəkmədi dəyişdi hava,
Sanki başlanırdı dənizdə dava.
Dörd yanı bürüdü sıx duman və toz,
Heç açmaq olmurdu bu məqamda göz,
Günəşin üzünə pərdə çəkildi,
Tufan lovğalanıb ucadan güldü.

Qara bulud gəldi,küləklər qopdu,
Dalğalar atını göylərə çapdı.
Ləpələr tez atıb-tutdu özünü,
Qorxudan turşutdu günəş gözünü.
Çox keçmədi qaçdı qara buludlar,
Yavaş-yavaş nura bələndi sular.
Tezliklə günəşin qızmar şuası,
Oldu lal suların parlaq aynası
Azca yağış yağdı, hava açıldı,
Elə bil hər yana işıq saçıldı.
Günəş taxt-tacından dənizə baxdı,
Hər ləpə saçına ağ çələng taxdı.
Buluddan qalmadı əsər-əlamət,
Dəniz də, sahil də elə bil cənnət.
Sahillərə çəpər çəkdi ləpələr,
Məyus-məyus boynun bükdü ləpələr.
Yalayıb bu ucsuz qum sahilləri,
İti addımlarla döndü tez geri.

-4-

Nadir möcüzədir dəniz havası,
Olduqca böyükdür onun davası.
Udsan ciyərlərə təmiz havanı,
O dəm yaxşılaşar qanın dövranı.
Qəlbimə məlhəmim,dərmanım mənim,
Sənsən qoca müdrik loğmanım mənim.
Dəniz suyunun da faydası çoxdur,
Dünyada Xəzərdən heç yerdə yoxdur
Burada onlarla turist bazası,
Olub çox insanın dərdin davası.
Mərcan sularında o şəfa tapıb,
Nəhayət, arzuya, istəyə çatıb.
Çimdikcə insanın artır qüvvəsi,
Təmizlənir gedib-gələn nəfəsi.

-5-

Bu an qanad çalıb sevən könüllər,
Tamam unuduldu bütün dərdi-sər.
Yayıldı sahilə qoca və cavan,
Hamı gülər üzlü, hamı mehriban.
Uşaqlar qaçaraq girdi dənizə,
Sevənlər vaxt tapıb qaldı göz-gözə.
Yenə alovlandı qəlbdə məhəbbət,
Sevgi axarına düşdü, nəhayət.
Əvvlki ahənglə başladı həyat,
Hər yerdə bir şənlik, bir toy, bir  busat...
Burada çoxsaylı musiqiçilər
Əlində kamança, tar üzü gülər.
Hamı dayanıbdır əmrə müntəzir,
Çalğının sədası qəlbi titrədir.
Qəlbim sevgi üçün Xəzəri seçdi,
O da şux yerişlə yanından keçdi.
Dedi : -Mən də səni qəlbdən sevirəm
İnan ürəyimi sənə verirəm.
Nə vaxt istəyirsən gəl görüşək biz,
Eşqi, məhəbbəti gəl bölüşək biz.
Xəzərə aşiqəm, mən  deyim, düzü,
Məni valeh edib şux üzü, gözü.
Ləpədən toxunmuş o ağ saçları,
Üzə töküləndə artır vüqarı.
Yerişi, duruşu nazənin sənəm,
Çağırsa görüşə  hər gün  gələrəm.

-6-

Xəzər Vətənimin dilbər guşəsi,
Çox uzaqdan gəlir onun xoş səsi.
Gəmilər sulara baş vurur burda
Çox gəlir gətirir Vətənə, yurda.

Min bir nemət yatır  göy sularında,
İgidlik rəmzi var saf vüqarında.
Qələbədən xəbər verir  ləpələr,
Baxdıqca onlara gözüm dincələr.
Qoynunda salınmış saysız buruqlar,
Deyir Vətənin xoş gələcəyi var.
İstəyinə nail olubdur Xəzər,
Sevinc tək qəlblərə dolubdur Xəzər.
Tükənməz sərvətli Xəzərim mənim,
Parlaq və sevimli əsərim mənim.
Sən qalib çıxmısan bir çox sınaqdan,
Alqışlar almısan gələn qonaqdan.
Çətinə inamla sən sinə gəldin,
İndi yoxdur sənin heç bircə dərdin.
Xöşbəxt xalqımızın bir ümmanısan
Sən bu yurdun cəsur qəhrəmanısan.
Yaşa, mənim çoşqun dənizim, yaşa,
Nəcib arzuların tez çatsın başa!
Arzuların tez bir vaxtda olsa çin,
Cənnət-məkan edər buVətən mülkün.
Xəzər adını çox sevir dünya,
Bu sevgi yüksəlib günəşə,aya.
Xain düşmən buna baxıb ovulur,
Yanaraq içində yaman qovrulur.

-7-

Uzaqlaşma məndən Xəzər, can Xəzər,
Sənin gözəl hüsnün ömrümü bəzər.
Elə hey deyirəm bayramda, toyda,
Xəzərdən götürüb elim çox fayda.
Burada yetişən nərə balıqlar
Dünyada çox yerdə dəyərin tapar.
Qara kürü məhşur olub cahanda.

Çox baha qiymətə gedir hər yanda.
Gözəl və müqəddəs, qadir Allahım,
Səsən son ümidüm, mənim pənahım.
Sülhün çırağını yandır bu yerdə,
Xalqımız qalmasın  qoy dərdi- sərdə.
Deyirəm, niyyətim çin olaydı kaş,
Bu yerdə əbədi güləydi günəş.
Tükənməz xəzinəm, sərvətim Xəzər,
Heç zaman sarsılmaz qüvvətim Xəzər.
Saf suaları məlhəm olsun diyara,
Düşmənin qəlbinə vursun qoy yara.
Könlümün şah teli bağlıdır sənə,
Nə olar,  qulaq as bir mən deyənə.
Sularında zəfər gətir torpağa,
Xöşbəxtliyi xəbər gətir torpağa.
Sən xalqıma sönməyən bir çıraqsan,
Ona möhkəm dost və arxa-dayaqsan.
Sənə arzuladım əbədi həyat,
Sənin ləpələrin qursun  toy-büsat.

-8-

Daim çiçək açsın xöşbəxt Vətənim,
Rahat olar onda ruhum, bədənim.
Qaranlıq dağılsın bu yolumuzdan,
Çətin anda gəl tut sən qolumuzdan.
Yüksək inkişafa sən versən təkan,
Cənnətə dönəcək bu dilbər məkan.
Qəm yemə, dost, hər şey yaxşı olacaq,
Hər ötən gün xatirədə qalacaq.
Həyat səviyyəsi yüksəlsə inan,
Bir cənnət olacaq bil Azərbaycan.
Zakirin ovqatı düzələcəkdir,
Ömrü parlaq nurla bəzənəcəkdir.

Yaxın buraxmayıb qüssəni ,qəmi,
Əldən qoymayacaq heç vaxt qələmi.
Gözəl duyğuların  beşiyi Xəzər,
Çəkər məhəbbətin keşiyin Xəzər.
Gəncliyin mehriban anasısan sən,
Sevginin ecazkar aynasısan sən.
Ruhumun qidası olub məhəbbət,
Veribdir qəlbimə həmişə qüvvət.
Bil məni yaşadan eşqdir dünyada,
Eşqsiz yaşamaqda yoxdur bir fayda.
Sevgin verib mənə ikinci nəfəs,
Sevgisiz bil xöşbəxt olmayıb heç kəs.

-9-

Xəzər sahilində çoxlu toy- büsat
Ailə quranlara  bəxş edib həyat.
Xeyir-dua alıb mavi sulardan,
Ömrün sonunadək doymayıb yardan.
Xöşbəxt həyat sürsün bütün cütlüklər,
Evə,ailəyə versinlər dəyər.

## Epiloq

Yekun vursam da mən, alın nəzərə,
Hələ çox sözüm var mavi Xəzərə.
Sənin gözəlliyin heç zaman enməz
İnan məhəbbətin qəlbdən silinməz.
Bütün dənizlərin anası Xəzər,
Nadir gözəllərin aynası Xəzər ,
Vətənim müqəddəs, zəngin guşəsi,
Onsuz inkişafın  yox nəticəsi.
Vətənə məhəbbət şuarım mənim,
Xəzərdir sevgili nigarım mənim.
Suyu təmiz,eşqi təmiz Xəzərim,
A dostlar, burada bitir əsərim.

# MÜNDƏRİCAT

**Ön söz. Vətənə, el-obaya məhəbbətlə bağlanan şair....** 3
**Çiçək açsın Vətənim** 8
Ey Vətən................................................................................ 9
Azərbaycan............................................................................. 10
Azərbaycanım.......................................................................... 12
Bakım..................................................................................... 13
Sərvətimizdir.......................................................................... 14
Yenə o günlərin sorağındayam............................................... 15
Şabranım................................................................................. 17
Şabran..................................................................................... 18
Çıraqqala................................................................................. 19
Ağzıbirçala.............................................................................. 21
Pirəbədil.................................................................................. 23
Bu yerlərə gəl.......................................................................... 25
Gəndovun................................................................................ 27
Kəndim.................................................................................... 29
**Sənin məhəbbətin yaşadır məni** 31
Gözəlliyə qovuşanda............................................................... 32
Eşqin sədası............................................................................. 33
Mənim ilk məhəbbətim............................................................ 34
Bir sevgi hekayəsi.................................................................... 35
Təbiət lövhələri........................................................................ 38
Sənin məhəbbətin yaşadır məni.............................................. 41
İki qəlb bir olanda.................................................................... 42
Ay işığında............................................................................... 43
Məhəbbətdir yaşadan............................................................... 44
**Müxtəlif şeirlər** 45
Söz............................................................................................ 46
Bahar........................................................................................ 48
Dünyanın qızıl tacı.................................................................. 50
Məktəbim................................................................................. 51

Dünyamızı qoruyaq........................................................ 53
İllərin ömrü.................................................................. 54
Nə deyim Fələyə ax nə deyim mən!.................................. 55
Atasının balası.............................................................. 56
Nəvələr........................................................................ 58
Müəllim........................................................................ 59
Şah və xain vəzir........................................................... 60
Ömür gedir.................................................................... 63
Yaşa məktəbim............................................................... 64
Toy................................................................................ 65
Ramazan-ziyarət ayı...................................................... 66
A qocaman məktəbim...................................................... 67
Gənclik nəğməsi............................................................. 68
Məktəbim....................................................................... 71
Ürəyim.......................................................................... 73
Yağış yağır.................................................................... 75
Müəllim ömrü................................................................. 76
Sağlamlığın düşməni...................................................... 77
Samoslu Pifaqor............................................................. 79
Fikirlər........................................................................... 81
Məzunlar........................................................................ 82
Qocalıq-kamillik dövrü................................................... 83
Əcəl aparar səni.............................................................. 87
Bir əsərdir mənim ömrüm................................................ 89
Ayrılıq........................................................................... 90
Xəyallarım..................................................................... 91
Şair ömrü....................................................................... 93
Yalan söz haqqında........................................................ 95
Yalançı və Əzrayıl.......................................................... 97
Uzaq olaq biz................................................................. 100
Dünyanın harayı............................................................. 102
Nurgün qızım................................................................. 103
İlk addım....................................................................... 104

Böyrək........................................................................... 107
Uzun ömrün sirri................................................................ 111
Bu dünyaya biz gəldik ki..................................................... 115
Qocalıqda peşman olmayaq.................................................. 117
Günəş və yaxud planetlərin şahı......................................... 118
Tamahkarın aqibəti............................................................. 121
Yaşamaq istəyirəm............................................................. 128
İlahə.................................................................................. 129
Qalmağa tələs.................................................................... 130
Ləmanım............................................................................ 132
Bu dünyanın...................................................................... 133
Söz yerinə düşəndə............................................................ 134
Ötən günlərim.................................................................... 135
Mən sənə günəş dedim ki................................................... 136
Uşaqlıq xatirələrim............................................................ 137
**Qəzəllər** 139
**Lirik poemalar** 160
Ailə qalası.......................................................................... 161
Övlad................................................................................. 168
Tusi.................................................................................... 175
Həyat yolu.......................................................................... 180
Ana Kürün sorağında.......................................................... 184
Xəzər sahilində................................................................... 187